RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

100

№ 183 (9350) 27 AVQUST 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

◆ Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Laçına səfəri



# DİRÇƏLƏN Laçın, Qarabağ, Şərqi Zəngəzur

## Biz istədiyimizə hər zaman nail oluruq

- Şəhər günləri şəhərlərimizin azad edilməsi günləridir. Laçın şəhəri isə 26 avqust tarixində tamamilə azad edilmişdir.
- Laçının işğala məruz qalması böyük faciə idi, həm laçınlılar üçün, həm bütün Azərbaycan xalqı üçün.
- İkinci Qarabağ müharibəsi nəticəsində dekabrın 1-də Laçın rayonu işğaldan azad edildi, ancaq Laçın şəhəri və iki kənd - Zabux və Sus kəndləri bizim nəzarətimizdə deyildi. Ona görə ki, keçmiş Laçın dəhlizi bu şəhərdən, bu kəndlərdən keçirdi. Biz qısa müddət ərzində yeni yol çəkərək həm Laçına, həm də Zabux və Sus kəndlərinə qayıtdıq.
- Hələ işğal dövründə dəfələrlə mən Azərbaycan dövlətinin mövqeyini ifadə edərək deyirdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarına qayıdacaqdır və belə də oldu.
- Bu gün biz həm Şuşada, həm Laçında toy-bayram edirik, həm də sakinlər qayıdıb, həyat qayıdıb. Bu gün səhər uşaqlarla bir neçə tədbirdə iştirak edirdim. Onlardan soruşurdum, həm Zabuxda, həm Laçın şəhərində, siz Bakıdan, Sumqayıtdan, digər yerlərdən gəlmisiniz, darıxmırsınız? Xeyr dedilər. Biz öz doğma torpağımızda qürurla yaşayırıq. Hər bir laçınlı, hər bir keçmiş məcburi köçkün bu gün qürur hissi ilə yaşayır.
- Biz bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik.
- Bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi qoyulmuşdur. Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik.

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın şəhərində mənzərəli terrasda və Bayraq meydanının qarşısında keçirilən Laçın Şəhəri Günü bayram şənliklərində, Həkəri çayının sahilində keçirilən Laçın Şəhəri Günü bayram tədbirində iştirak ediblər.**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçının Zabux kəndində görülmüş işlərlə tanış olub və sakinlərlə görüşüblər.**

➔ 2-6

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Laçına səfəri

# Dirçələn Laçın, Qarabağ, Şərqi Zəngəzur

## Biz istədiyimizə hər zaman nail oluruq

### Zabux kəndində görülmüş işlərlə tanışlıq və sakinlərlə görüş







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Laçın rayonunun Zabux kəndində görülmüş işlərlə tanış olub və burada kənd sakinləri ilə görüşüblər.**





AZƏRTAC xəbər verir ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dövlət başçısına və birinci xanıma kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 81 hektar olan Zabux kəndinə 245 ailənin köçürülməsi nəzərdə tutulur. İlkin mərhələdə kəndə 223 ailə köçürüləcək. Eyni zamanda kənd sakinlərinin rahatlığı və məşğulluğu nəzərə alınaraq bir sıra infrastruktur binalarının da inşası həyata keçirilib. Kənddə 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi də inşa edilib. Zabuxda evlərin, sosial obyektlərin və küçələrin işıqlandırılmasında "yaşıl enerji"dən istifadə edilir. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq, kənddə bütün işlər ən yüksək səviyyədə yerinə yetirilib.

Qeyd edək ki, artıq avqustun 25-də 20 ailə - 88 nəfər doğma yurdlarına - Zabux kəndinə qayıdıb.

Dövlət başçısı və birinci xanım kənd sakinləri ilə görüşüb söhbət etdilər.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm.

**Sakinlər:** Salam. Xoş gəlmisiniz, cənab Ali Baş Komandan. Xoş gördük.

**Sakin (Mehriban xanıma):** Təbrik edirik.

**Mehriban xanım ƏLİYEVA:** Sağ olun.

**Sakinlər:** Yaratdığınız bu cənnətə xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Qadın sakin (Mehriban xanıma):** Sizi təbrik edirəm. 100 yaşayın, Allah Sizə cansağlığı versin.

**Mehriban xanım ƏLİYEVA:** Çox sağ olun. Hər kəsə Allah cansağlığı versin.

**Prezident İlham ƏLİYEV:** Sizi təbrik edirəm, Vətəninizə xoş gəlmisiniz.

**Sakinlər:** Sağ olun, Allah Sizi var eləsin. Bura Sizin yaratdığınız cənnətdir, biz gəlmişik.

**Prezident İlham ƏLİYEV:** 31 ildən sonra.

**Sakin:** Bəli, Allah köməyiniz olsun. 31 il 102 gündür ki, mən bura gəlməmişəm. Bu gün buradayam.

**Prezident İlham ƏLİYEV:** Hansı tarixdə Zabuxdan çıxmısınız?

**Sakin:** 1992-ci il mayın 16-da çıxmışam.

**Prezident İlham ƏLİYEV:** Hələ Laçın şəhəri işğal olunmamışdı. Buranı işğal etdilər, ondan sonra.

**Sakin:** Bəli. Allah Sizə ömür versin.

**Prezident İlham ƏLİYEV:** Bu illər ərzində harada yaşayırdınız?

**Sakin:** Bu illər ərzində Sarıqayada yaşamışam, sonra Sumqayıtda yataqxanada yaşamışam. İndi də Quba yolunun üstündə fərdi evim var, orada yaşamışam.

**Prezident İlham ƏLİYEV:** Artıq vətəndəsiniz. Bundan böyük xoşbəxtlik ola bilməz. Zabux kəndi də tamamilə yeni görkəm alır.

**Sakin:** Çox sağ olun, Allah köməyiniz olsun. Cənnət yaratmısınız. Allah razı olsun.

**Prezident İlham ƏLİYEV:** Siz dünən gəlmisiniz, birinci köçənlərdənsiniz. 31 ildən sonra artıq vətəndaşlarımız öz dədə-baba torpaqlarına qayıdırlar. Bundan böyük xoşbəxtlik ola bilməz. Əminəm ki, siz də hər zaman inanırdınız ki, bu gün gələcək.

**Sakin:** Gəldi, Sizin sayənizdə. Allah Sizə ömür versin. 44 günlük müharibədə kütləvi informasiya vasitələrində Sizin gördüyünüz iş böyük bir jurnalist ordusunun, böyük bir müxbir ordusunun işi idi. Hamını öz yerində oturtdunuz. Bu gün bizim üçün həm də gözəl günlərdən biridir ki, Mehriban xanımın ad günüdür. Biz hamımız Mehriban xanıma uzun ömür, cansağlığı arzulayırıq. Allah ömür versin. Əskik olmasın.

**Prezident İlham ƏLİYEV:** Bu gün Laçın Şəhəri Günüdür. Çünki 26 avqust - keçən ilin bu günündə ordumuz Laçın şəhərinə daxil oldu. Beləliklə, 26 Avqust bundan sonra Laçın Şəhəri Günü kimi qeyd olunacaq. Azad edilmiş bütün şəhərlərimizin şəhər günləri təsis edildi. Mənim fərmanımla növbəti bayram tədbirləri oktyabrın 17-də Füzuli şəhərində olacaq.

**Sakin:** İnşallah. Zəfərlərimiz bol, bayrağımız uca olsun.

**Yaşlı qadın:** Xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Sən də xoş gəlmisən.

**Yaşlı qadın:** Allah canınızı sağ eləsin. Sizdən bircə xahişim var. Mənim oğlum rəhmətə gedib, mənim olduğum otağı verirəm ölən oğlumun yoldaşına, təşkil edəsiniz.

**Prezident İlham ƏLİYEV:** Mehriban xanım nə lazımdırsa onu həll edər.

**Qadın sakin:** Oğlu rəhmətə gedib. İstəyir ki, onun oğlu, uşağı, ailəsi buna yaxın olsun.

**Prezident İlham ƏLİYEV:** Gəlsinlər buraya?

**Sakin:** Hə, gəlsinlər, buraya yaxın olsunlar.

**Prezident İlham ƏLİYEV:** Gəlsinlər, əlbəttə.

**Mehriban xanım ƏLİYEVA:** Onlar indi haradadırlar?

**Sakin:** Xırdalanda.

**Prezident İlham ƏLİYEV:** Onlar, əlbəttə, gələcəklər. Yəni bütün zabuxlular gələcəklər. Eviniz necədir, rahatdır?

**Sakinlər:** Rahatdır. Hər şey yaxşıdır.

**Prezident İlham ƏLİYEV:** Nənənin yaxın qohumları da gələcək, yəqin ki, bir müddətdən sonra. Xahişi odur ki, onların da yeri ona yaxın olsun. Onu təşkil edərsiniz.

**Rövşən RZAYEV:** Baş üstə.

**Prezident İlham ƏLİYEV:** Bütün zabuxlular qayıdacaqlar. Yəni mən şübhə etmirəm. Çünki biz bu inşa işlərinə start verəndə mən dedim ki, keçmiş köçkünlər arasında sorğu keçirilsin. Mənə verilən məlumata görə, bütün əksər köçkünlər, onların mütləq əksəriyyəti qayıtmağa qərar vermişdir. Ona görə zabuxlular da qayıdacaqlar. Çünki bəzi evlərdə hələ ki tamamlama işləri gedir.

**Yaşlı qadın:** Allah o gözəl atana rəhmət eləsin! Amin!

**Prezident İlham ƏLİYEV:** Allah bütün ölənlərimizə, şəhidlərimizə rəhmət eləsin! Onların sayəsində, Ordumuzun sayəsində biz bu gün buradayıq. Siz bu divarı çəkmisiniz?

**Rövşən RZAYEV:** Bəli, istinad divarları çəkilib.

**Prezident İlham ƏLİYEV:** İstinad divarı, amma çaya da giriş olmalıdır.

**Rövşən RZAYEV:** Çaya bu bulaqdan ayrıca giriş gedir, bu bulaq tərəfdən, onun arxasından.

**Prezident İlham ƏLİYEV:** Yox, çaya yaxınlaşmaq üçün. Mən baxıram, siz divarı belə bütöv çəkmisiniz, insanlar çaya yaxınlaşa bilmirlər, siz girişlər edin. Siz müxtəlif yerlərdə açın bu divarları ki, belə pilləkən düzəldin, yaxud da belə geniş olsun ki, insanlar çaya yaxınlaşa bilsinlər.

**Rövşən RZAYEV:** Baş üstə.

**Məsim MƏMMƏDOV:** Bu çay da bizim Həkəri kimi genişləndirilib, dərindən çıxarılıb ki, bir az geniş olsun.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, siz elə yaxın zamanlarda açın ki, giriş olsun.

**Məsim MƏMMƏDOV:** Baş üstə.

**Prezident İlham ƏLİYEV:** Uşaqlar, yaşlı insanlar buraya - çayın qırağına rahat gəlsinlər, burada sərinləsinlər, balıq tutsunlar.

**Sakin:** Allah ömür versin, maşallah, Sizin sayənizdə Zabux kəndini bütün BMT-dən belə tanıyırlar. Bütün dünyada artıq Zabux kəndi məşhur kənddir. Allah Sizə ömür versin. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Ermənilər gəlib burada qanunsuz yerləşmişdilər, özü də deyirdilər ki, buradan çıxmırıq. Yəqin ki, o kadrları görmüsünüz.

**Sakinlər:** Hamısını görmüşük, izləmişik. Allah Sizə ömür versin.

**Prezident İlham ƏLİYEV:** Bir eybəcər ad da vermişdilər. Gəlin, şəkil çəkdirək.

❖ ❖ ❖

Xatirə şəkilləri çəkdirilir.

❖ ❖ ❖

**Sakinlər:** Yaddaşlarda qalan xatirədir, gözəl xatirədir. Bütün evlərdə, hamıda olacaq, inşallah.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakinlər:** Allah köməyiniz olsun.

**Prezident İlham ƏLİYEV:** Yəqin ki, yaxın bir neçə aya bütün zabuxlular gələcəklər.

**Sakin:** İnşallah, gələcəklər.

**Sakinlər:** Ad gününüz mübarək. Sizin sayənizdə gözəl bayram yaşayırıq.

**Prezident İlham ƏLİYEV:** Salamat qalın, bütün şəhər də hazırdır, yəqin ki, gedib görəcəksiniz, ora da gözəl şəhər olubdur.

**Sakinlər:** İnşallah, gedib görəcəyik. Bu gün çox böyük bir sevinc, qürur hissi keçiririk.

**Prezident İlham ƏLİYEV:** Laçın şəhərinə mən keçən ilin sentyabr ayında gələndə dağılmış vəziyyətdə idi.

**Sakin:** İndi şükür Allaha. Ulu Öndərimiz həmişə hər çıxışında belə cümlələr işlədirdi ki, vaxt olacaq, zaman gələcək qaçqın və məcburi köçkünlər öz yurdlarına qayıdacaqlar. O gün məhz elə bu gündür ki, biz buradayıq.

**Prezident İlham ƏLİYEV:** Bəli, həmin gündür.

**Sakin:** Sevincdən kövrəlirik. Çox şükür, bunu da Siz davam etdirdiniz. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Buranı ermənilər zəbt etmişdilər, burada qanunsuz məskunlaşma aparmışdılar, xaricdən erməniləri gətirmişdilər və burada özləri üçün evlər tikmişdilər. Onların heç biri də qalmayıb. Mən dedim, buraya gələn zabuxlular Azərbaycan dövləti tərəfindən tikilən evlərdə qalmalıdırlar.

**Sakin:** Çox sağ olun, minnətdaram.

**Prezident İlham ƏLİYEV:** O evlər artıq tarixin qara səhifəsində qaldı. Laçın şəhəri də tamamilə dağılmış vəziyyətdə idi. İndi, yəqin ki, gedib görərsiniz, necə gözəl şəhər olub, dünya miqyasında.

**Sakin:** Düzdür, müəyyən qüvvələr var idi, xarici qüvvələr, ancaq buna baxmayaraq, Siz bunların hamısının qabağını tək-tənha aldınız, layiqincə cavablandırdınız. Hamısını oturtdunuz yerinə. Yəni bu, əsas bir tarixi gündür.

**Sakin:** 44 günlük müharibədə Qələbə tarixi gündür.

**Prezident İlham ƏLİYEV:** Düzdür, ermənilər heç bir rayonu qaytarmaq fikrində deyildilər. Amma danışıqlarda deyirdilər ki, bəli, beş rayonu biz qaytarmağa hazırıq, amma Laçın və Kəlbəcər bizim nəzarətimizdə qalmalıdır. Çünki bunların strateji yerləşməsi təhlükəsizlik nöqteyi-nəzərindən önəmlidir. Laçın, Kəlbəcər rayonlarının strateji əhəmiyyəti çox böyükdür.

**Sakin:** Sizin bir sözünüz var idi, möhtərəm Prezident, deyirdiniz, elə bil buradan vəhşi qəbilə keçib.

**Prezident İlham ƏLİYEV:** Bəli.

**Sakin:** Doğrudan da, biz rayona gələndə gördük ki, vəhşi qəbilə də yalan imiş onların yanında, elə bil daşları da yeyiblər.

**Prezident İlham ƏLİYEV:** Bəli, siz gördünüz, bütün evlər darmadağın idi, hər yeri viran qoyub gediblər - Ağdamı, Füzulini, Cəbrayılı, Qubadlını. Siz indi o yolla - Qubadlıdan gəlmisiniz, görmüsünüz, bir dənə də salamat bina yoxdur, nə şəhərdə, nə kəndlərdə.

**Sakinlər:** Bəli, o yerlərdə heç nə yoxdur. Amma bütün dünyanın görmədiyini, etmədiyini Siz təkbaşına etdiniz, hamısı ilə döyüşə-döyüşə. Hamısı Zabux kimi belə düzələcək.

**Prezident İlham ƏLİYEV:** İndi də Ermənistanın bəzi xarici havadarları bunu görmək istəmirlər. Sanki bu işğal olmayıb, sanki bu vəhşilik, düşmənçilik olmayıb. Otuz il ağzına su alıb susanlar, yaxud da ki, erməni işğalına bəraət qazandıranlar indi gəlib bizə qarşı iddia qaldırırlar, irad tuturlar, ittiham edirlər. Biz qurub-yaradan xalqıq. Erməninin otuz il dağıtdığını biz iki ilə artıq qururuq, qurmuşuq, insanlar qayıdıblar. Biz öz torpağımızdayıq. Bura da əzəli Azərbaycan torpağı olub. İşğal dövründə hansı eybəcər ad verirsən-ver, onun əhəmiyyəti yoxdur. O ad da onların başına dəydi, elə onlarla da cəhənnəmə getdi.

**Sakin:** Onları iti qovan kimi qovdunuz.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Salamat qalın, xoşbəxt yaşayın.

**Sakinlər:** Sağ olun, Allah razı olsun.

**Sakin:** Bu, kəndimizin ağsaqqalıdır.

*Ardı 3-cü səh.*

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Laçına səfəri

# Dirçələn Laçın, Qarabağ, Şərqi Zəngəzur

## Biz istədiyimizə hər zaman nail oluruq

*Əvvəli 2-ci səh.*









**Prezident İlham ƏLİYEV:** Salaməleyküm.

**Sakin:** Əleyküməssalam. Sizi xoş gördük. Allah Sizin yolunuzu hər zaman açıq etsin, başınız uca olsun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Həmişə dediyiniz kimi, nəyi nə vaxt, harada etməyi Siz bilirsiniz. Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ ol. İndi Vətənə qayıtmısınız. Təbrik edirəm.

**Sakin:** Bəli, böyük gündür. Çox sağ olun, minnətdaram.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm. Sağ ol.

**Sakin:** Bütün xalqımıza qismət olsun əmin-amanlıq, Sizin sayənizdə öz yerimizə-yurdumuza qayıtmışıq, çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Küçə boyunca evlər hazırdır?

**Sakin:** Bəli. İlk köçmə mərhələdə.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm.

**Digər sakin:** Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Sağ ol, xoş gördük, salaməleyküm.

**Sakin:** Allah Sizə uzun ömür, cansağlığı versin, bu xoşbəxtliyi bizə qismət etdiyinizə görə sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Necə hiss edirsiniz özünüzü doğma torpaqda?

**Sakin:** Çox əla, bəli, doğma torpaqda. Allah Sizə uzun ömür, cansağlığı versin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Gəl şəkil çəkdirək. Dünən gəlmisiniz?

**Sakin:** Bəli, dünən gəlmişik.

**Prezident İlham ƏLİYEV:** Harada yaşayırdınız bu vaxta qədər?

**Sakin:** Sumqayıt şəhərində.

**Prezident İlham ƏLİYEV:** Şəraitiniz necə idi?

**Sakin:** Orada yataqxanada yaşayırdıq.

**Prezident İlham ƏLİYEV:** Bura necədir, yaxşıdır?

**Sakin:** Çox əladır. Allah Sizə ömür versin.

**Mehriban xanım ƏLİYEVA:** Salam, təbrik edirəm.

**Sakin:** Mehriban xanım, bu gün Sizin ad gününüzdür. Sizi də təbrik edirik. Allah Sizə uzun ömür, cansağlığı versin.

**Mehriban xanım ƏLİYEVA:** Sağ olun.

**Sakin:** Bütün Azərbaycan qadınları adından təbrik edirik.

**Mehriban xanım ƏLİYEVA:** Sağ olun, çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Siz harada yaşayırdınız?

**Sakin:** Abşeronda, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Biz gəlmişik sizinlə görüşə.

**Sakinlər:** Salam. Xoş gəlmisiniz. Allah Sizə ömür versin, Allah Sizi saxlasın. Çox şadıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Sizinlə görüşməyi çox istəmişəm. Mən həmişə Sizinlə fəxr etmişəm, başımızın tacısınız.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, çox sağ olun.

**Sakin:** Bu gün 30 illik arzumuza axır ki son qoyduran Sizsiniz. Allah atanıza da rəhmət eləsin, həmişə başımızın üstündə ucalarda olasınız.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Hamımız xoşbəxt günlər yaşayırıq.

**Sakinlər:** Biz Sizin sayənizdə çox xoşbəxtik. Allah Sizə ömür versin. Ömrünüz uzun olsun. Həmişə var olasınız.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, bura necədir?

**Sakinlər:** Çox yaxşı, əla.

**Prezident İlham ƏLİYEV:** Dünən gəlmisiniz, hələ ki yerləşirsiniz. Doğma torpaqda yaşamaq, əlbəttə, böyük xoşbəxtlikdir.

**Sakin:** Bəli. Mehriban xanımı da təbrik edirik, ad günü münasibətilə.

**Mehriban xanım ƏLİYEVA:** Sağ olun, çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Harada yaşayırdınız?

**Sakin:** Bakıda, Pirşağıda yataqxanada.

**Prezident İlham ƏLİYEV:** İndi artıq doğma torpağında və bu gözəl evdə, gözəl kənddə.

**Sakin:** Gül kimi yerimiz, bəli, bəli.

**Prezident İlham ƏLİYEV:** Laçın şəhəri də indi çox gözəl şəhərə çevrilib.

**Sakin:** Allah Sizə ömür versin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Bu gecə öz ana torpağımızda, öz yerimizdə çox rahat olmuşuq.

**Digər sakin:** Nəvəmdir.

**Prezident İlham ƏLİYEV:** Sən necə gəldin? Həvəslə gəlmisən buraya? Uşaqlar görəcəklər Zabux torpağının havasının ləzzətini.

**Sakin:** 37 il burada yaşamışam, indi 68 yaşım var, təqaüddəyəm. Allah Sizə ömür versin, Sizin sayənizdə hər şey yaxşıdır.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, salamat qalın.

**Sakin:** Çox sağ olun.

**Digər sakin:** Cənab Prezident, şəkil çəkdirmək olar Sizinlə?

**Prezident İlham ƏLİYEV:** Gəl çəkdirək. Salaməleyküm, xoş gördük.

**Kişi sakin:** Xoş gördük.

**Prezident İlham ƏLİYEV:** Xoş gəlmisiniz.

Salam. Təbrik edirəm.

**Sakin:** Salam, xoş gəlmisiniz. Çox sağ olun. Allah Sizi qorusun. Bu sevinci bizə bəxş etdiyiniz üçün təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, xoşbəxt yaşayın.

**Sakinlər:** Sağ olun, çox sağ olun, Allah köməyiniz olsun. Minnətdarıq, təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:** Salam.

**Sakin:** Xoş gəlmisiniz. Allah Sizə dəyməsin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Siz də xoş gəlmisiniz.

**Sakin:** Uzun illərin həsrətinə son qoydunuz, bizə sevinc yaşatdınız. Çox sağ olun, Allah-taala Sizə uzun ömür versin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, çox sağ olun. Sizə də uzun ömür, xoşbəxtlik, doğma diyarınızda xoşbəxt həyat arzulayıram.

**Sakinlər:** Çox sağ olun, çox razıyıq. Allah uzun ömür versin Sizə.

**Prezident İlham ƏLİYEV:** Harada yaşayırdınız işğal dövründə?

**Sakin:** Sumqayıtda.

**Prezident İlham ƏLİYEV:** Sumqayıtda, hansı şəraitdə? Dövlət tərəfindən verilmiş evdə, yoxsa?

**Sakin:** Yataqxanada yaşayırdıq.

**Prezident İlham ƏLİYEV:** Yəni bütün işğal dövründə yataqxanada? Siz buradan çıxanda birbaşa oraya getmişdiniz?

**Sakin:** Xeyr, bir neçə yerdə olduq, axırda orada.

**Prezident İlham ƏLİYEV:** Sumqayıtda.

**Sakin:** İndi çox şükür ki, öz Vətənimizdə, öz evimizdə, öz obamızdayıq. Çox şükür, lap razıyıq, ailəliklə minnətdarıq Sizə, çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Laçın rayonu da indi inkişaf edir, Laçın şəhəri də gözəl şəhərlərimizdən biridir. İndi, yəqin, gedib görəcəksiniz.

**Sakin:** Hər şey mükəmməldir, əla, dünən gördük. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Hə, getdiniz baxdınız?

**Sakin:** Çox yaxşı qarşıladılar. Çox hörmət etdilər. Çox sağ olsunlar, sağ olun.

**Prezident İlham ƏLİYEV:** İndi yerləşirsiniz burada.

**Sakin:** Sağ olun, Allah Sizə dəyməsin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, cansağlığı arzulayıram. Salaməleyküm.

**Sakin:** Salam, cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Siz də xoş gəlmisiniz.

**Sakin:** Gəlişinizlə bizə şərəf verdiniz. Bizə bu gözəl günü yaşatdığınız üçün Allah sizləri var eləsin.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm sizi.

**Sakin:** Çox sağ olun. Allah Sizi var eləsin.

**Prezident İlham ƏLİYEV:** Necədir?

**Sakin:** Şükür, min şükür, çox əla.

**Prezident İlham ƏLİYEV:** Doğma kənddə.

**Sakin:** Bəli.

**Prezident İlham ƏLİYEV:** 31 ildən sonra.

**Sakin:** Bizə həyatı yaşatdınız yenidən, çox sağ olun, var olasınız.

**Prezident İlham ƏLİYEV:** Allaha şükür, kənd də gözəldir.

**Sakin:** Allah bütün şəhidlərimizə rəhmət eləsin! Sizlərə də cansağlığı.

**Prezident İlham ƏLİYEV:** Allah rəhmət eləsin! Sizə cansağlığı, xoşbəxt yaşayın, qurun, yaradın.

**Sakin:** Çox sağ olun. Xanımın da ad günüdür, təbrik edirik.

**Prezident İlham ƏLİYEV:** Uşaqlar da ilk dəfə görürlər də, yəqin ki, Laçını, Zabux kəndini. Necədir? Cavanlar həvəslə gəliblər?

**Sakin:** Bəli, bəli. Çox razı qaldıq. Allah sizləri var eləsin.

**Prezident İlham ƏLİYEV:** Yəqin ki, şəhərdə yaşamısınız? Bakıda?

**Sakin:** Sumqayıtda.

**Prezident İlham ƏLİYEV:** Əminəm ki, burada görəcəksiniz ki, bax bu şərait nə qədər gözəldir. Əsas odur ki, insan öz doğma torpağında yaşayır, azad edilmiş torpaqda yaşayır və qürurla yaşayır.

**Sakin:** Biz də şəkil çəkdirək?

**Prezident İlham ƏLİYEV:** Bəli, gəlin şəkil çəkdirək.

**Sakin:** Xanımı da təbrik edirik.

**Mehriban xanım ƏLİYEVA:** Salam, mən də sizi təbrik edirəm, çox sağ olun.

❖ ❖ ❖

Şəkil çəkdirirlər.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Xoş gördük, cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakinlər:** Təbrik edirik, sağ olun.

**Mehriban xanım ƏLİYEVA:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Salam, təbrik edirəm.

**Sakin:** Salam, çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Salam, bala.

**Sakin:** Sağ ol, denən "sağ ol baba". Sağ olun, Allah canınızı sağ eləsin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Başımızın üstündən əskik olmayasınız.

**Prezident İlham ƏLİYEV:** Salam, təbrik edirəm.

**Sakin:** Təbrik edirik, çox sağ olun. Minnətdarıq.

**Prezident İlham ƏLİYEV:** Gəlin şəkil çəkdirək.

**Sakin:** Baba ilə şəkil çəkdir.

**Prezident İlham ƏLİYEV:** Sənin yaxşı kurtkan var idi, çıxardın onu? Azərbaycan yazılmışdı.

**Sakin:** Sağ olun, Allah canınızı sağ eləsin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Gəlin bəri, gəlin bəri.

**Prezident İlham ƏLİYEV:** Salam, xoş gördük. Xoş gəlmisiniz.

**Sakin:** Salam, xoş gəlmisiniz, xoş gördük.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm.

**Sakin:** Xoş gördük, xoş gördük. Həmişə Siz gələsiniz bizim kəndimizə.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm, salam, salam.

**Sakin:** Gəl buraya, gəl İlham babanın yanında dur.

**Prezident İlham ƏLİYEV:** Biz artıq şəkil çəkdirmişik onunla.

**Sakin:** Gəl bura, burada dur.

**Prezident İlham ƏLİYEV:** Harada yaşayırdınız bu vaxta qədər?

**Sakin:** Şirvanda. Dədə-baba yurdumuzdur, gəlmişəm. Neçə aydır, 32 ildir buradan getmişdim, bu axşam heç yatmamışam. Allah köməyiniz olsun. Sizin sayənizdə hamısı olub.

**Prezident İlham ƏLİYEV:** Xoşbəxt günlər yaşayın.

**Sakin:** Bizdən çox siz əziyyət çəkmisiniz.

**Prezident İlham ƏLİYEV:** Bütün xalqımız sizin sevincinizə şərikdir.

**Sakin:** Cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Bu gün qürurlu, başıucayıq ki, bəli, bu torpaqlar artıq bizdədir. Var olun, cənab Prezident!

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Mənim nəvəmin də sözü var.

**Prezident İlham ƏLİYEV:** Hə, buyur.

**Uşaq:** Hörmətli cənab Prezident, Ali Baş Komandan, hörmətli Birinci vitse-prezident Mehriban xanım, sizləri doğma kəndimiz Zabuxda gördüyümüzə görə çox şadıq. Cənab Prezident, biz şagirdlərə belə gözəl məktəb tikdirdiyiniz üçün Sizə təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:** Sağ ol, çox sağ ol.

**Sakin:** Allah canınızı sağ eləsin.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm sizi. Xoş gəlmisiniz vətəninizə.

**Sakin:** Belə gözəl yerdə belə gözəl kənd salmısınız.

**Digər sakin:** Cənab Prezident, laçınlılar da Sizi çox istəyirlər. Elə bir neçə il öncə Siz ad gününüzü Taxtakörpü qəsəbəsində laçınlılarla qeyd etmisiniz. Bu gün də Mehriban xanımın ad günüdür. Fürsətdən istifadə edib bütün kənd sakinləri adından ad gününü təbrik edirik.

**Prezident İlham ƏLİYEV:** Bəli, düz deyirsiniz. O vaxt demişdim ki, gün gələcək və siz doğma torpağınıza qayıdacaqsınız. Bax, o gün gəldi.

**Sakinlər:** O gün elə bu gündür. Sağ olun. Allah canınızı sağ eləsin.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm, sağ olun.

**Sakin:** Mən də istəyirəm Sizinlə şəkil çəkdirəm.

**Prezident İlham ƏLİYEV:** Gəlin şəkil çəkdirək.

**Sakin:** Biz hamımız Sizi çox istəyirik, Sizə inanırıq, Sizə güvənirik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, salamat qalın. Sağ olun, cansağlığı, uzun ömür.

**Mehriban xanım ƏLİYEVA:** Yenə qonaq gələcəyəm.

**Sakin:** Allah canınızı sağ eləsin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, cansağlığı.

**Mehriban xanım ƏLİYEVA:** Sağ olun.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Laçına səfəri

# Dirçələn Laçın, Qarabağ, Şərqi Zəngəzur

## Biz istədiyimizə hər zaman nail oluruq

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Şəhəri Günü bayram şənliklərində iştirak ediblər

















**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində mənzərəli terrasda və Bayraq meydanının qarşısında keçirilən Laçın Şəhəri Günü bayram şənliklərində iştirak ediblər.**







AZƏRTAC xəbər verir ki, şəhərin mənzərəli terrasında Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı və teatrın nəzdində fəaliyyət göstərən "Oyuq" Studiyası müxtəlif tamaşalar nümayiş etdirib. Burada eyni zamanda xalq tətbiqi sənəti üzrə ustad dərsləri təşkil olunub, şəbəkə, həsir sənəti, dulusçuluq, misgərlik, xalçaçılıq, tikmə, papaqçılıq və digər sənət növlərinin də daxil olduğu incəsənət sərgisi və "Laçın mənzərələri" adlı rəsm sərgisi açılıb. Laçının mənzərəli məkanlarından birində qurulmuş "I love Lachin" bölməsində isə qonaqlar şəhərin füsunkar təbiətini seyr edə, bu gözəlliyi öz telefonlarının və fotoaparatlarının yaddaşına köçürə biləcəklər. İncəsənət düşərgəsində isə rəsm əsərlərinin çəkilməsi və ceyran maketlərinin boyanmasını izləmək mümkün olacaq.

Bayraq meydanının qarşısında isə gün ərzində "Sarı Aşıq və Yaxşı" dastan-tamaşası nümayiş olunub, Laçın çay ənənələrinin təqdimatı məqsədilə "Çay dəstgahı", müxtəlif sənətkarlıq nümunələri, suvenirlər, zərgərlik, keramika və sair məmulatların satışı üçün "Laçın bazarı" qurulub, milli geyimdə olan aktyorların ifasında immersiv oyunlar, milli personajlardan hazırlanan maskotların gəzintisi təşkil edilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Şəhəri Günü bayram şənliklərində təşkil olunan sərgilərlə tanış olub, sənətkarlıq nümunələrinə baxıb, tamaşalar izləyib, tədbir iştirakçıları ilə söhbət ediblər.

**Prezident İlham ƏLİYEV:** Salam uşaqlar.

**Uşaqlar:** Salam, necəsiniz?

**Prezident İlham ƏLİYEV:** Gəlin şəkil çəkdirək.

**Rza DEQQƏTİ:** Bunların şəkilləridir. Bunların 100 şəklini çəkmişəm.

**Müəllim:** Bunlar hamısı laçınlıdır. Hamısı köçüb gəlib yaşayırlar.

**Prezident İlham ƏLİYEV:** Hamısı köçüb gəlib, çox gözəl.

❖ ❖ ❖

Uşaqlarla xatirə şəkli çəkdirildi.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** Məktəb 15 sentyabrda açılacaq. Biz dünən gördük, məktəb də gözəldir, 2 nömrəli məktəb, məktəb avtobusu var. Yəqin ki, gələn ilə çatdıracağıq, çalışacağıq 1 nömrəli məktəb də inşa edilsin. Ona görə uşaqlar da sentyabrın 15-dən məktəbə getməyə hazır olsunlar. Siz Bakıda yaşamısınız, Sumqayıtda yaşamısınız, yəqin ki, elə deyilmi? Yəni böyük şəhərlərdə yaşamısınız. Amma indi gəlmisiniz nisbətən kiçik olan belə şəhərə. Özünüzü yaxşı hiss edirsiniz?

**Uşaqlar:** Kiçik olsa da, çox gözəldir. Çoxlu gəzirik.

**Uşaq:** Allah Sizi qorusun ki, Siz bu cənnəti almısınız.

*Ardı 5-ci səh.*

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Laçına səfəri

# Dirçələn Laçın, Qarabağ, Şərqi Zəngəzur

## Biz istədiyimizə hər zaman nail oluruq

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Şəhəri Günü bayram şənliklərində iştirak ediblər







*Əvvəli 4-cü səh.*

**Prezident İlham ƏLİYEV:** Doğrudan da, cənnətdir.

**Müəllim:** Bəli, uşaqların sevinci bəsdir.

**Mehriban xanım ƏLİYEVA:** Cənnətdir.

**Prezident İlham ƏLİYEV:** Laçın şəhəri indi gündən-günə daha da gözəlləşir. Azad edilmiş bu ərazilərdə şəhərlər elə olacaq ki, heç paytaxt şəhərlərdən də fərqlənməyəcək.

**Balaca oğlan:** Cənab Prezidentimiz, izn verirsinizsə, Sizə Türk marşının, yəni "İstiqlal marşı"nın iki kupletini deyim.

**Prezident İlham ƏLİYEV:** Hə, de.

❖ ❖ ❖

Uşaq Türkiyənin Dövlət Himnindən iki bəndi söylədi.

❖ ❖ ❖

**Mehriban xanım ƏLİYEVA:** Sağ olun.

❖ ❖ ❖

Dövlət başçısı və birinci xanım "Laçın mənzərələri" adlı rəsm sərgisi ilə tanış oldular.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** Biz Kəlbəcərdən gəlmişik. Orada da çox gözəl mənzərəli yerlər var.

**Rəssam:** Şərait yaransın, orada da çəkərik, çox gözəldir.

**Mehriban xanım ƏLİYEVA:** İnşallah.

**Prezident İlham ƏLİYEV:** Siz buraya biz təzə gələndə də gəlmişdiniz, ermənilərin qoyduqlarını görmüşdünüz nə gündəydi. Bir il, heç bir il keçməyib, oktyabrda başlamışıq bərpa işlərinə, siz burada olmusunuz.

**Rəssam:** Bilirəm, üç dəfə olmuşam.

**Digər rəssam:** Bu, "Qasımuşağı" - Laçının ənənəvi xalçasıdır. "Çələbi" Qarabağın simvolu olduğu kimi, "Qasımuşağı" da Laçının ənənəvi xalçasıdır. O nəsil yaşayırdı, Zülfi əmi var idi, rəhmətə getdi.

**Prezident İlham ƏLİYEV:** Kimsə var o nəsildən?

**Sakin:** Var, o nəsildən var, Qasımuşağı.

❖ ❖ ❖

Rəssamlarla xatirə şəkli çəkdirildi.

❖ ❖ ❖

**Rəssam:** Bizə çox xoşdur ki, Siz ad gününüzü Laçının bayram günü ilə bir yerdə qeyd edirsiniz.

**Mehriban xanım ƏLİYEVA:** Sağ olun. Mənim üçün də ən gözəl ad günlərimdən biridir ki, buradayam.

**Sakin:** Çox sağ olun, minnətdarıq Sizə.

**Mehriban xanım ƏLİYEVA:** Çox sağ olun.

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Həkəri çayının sahilində keçirilən Laçın Şəhəri Günü bayram tədbirində iştirak ediblər









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində Həkəri çayının sahilində keçirilən Laçın Şəhəri Günü bayram tədbirində iştirak ediblər.**

Qeyd edək ki, Həkəri çayının sahilində, Bulvar ərazisində Uşaq İncəsənət Festivalının yay düşərgəsində finala çıxmış şagirdlərin rəssamlıq, dekorativ-tətbiqi sənət və digər istiqamətlər üzrə əsərlərinin təqdimatı olub. Burada həmçinin Laçın mətbəxindən nümunələr təqdim edilib, "Hünər meydanı"nda pəhləvanlar və kəndirbazların çıxışları olub, qiraətçilər laçınlı şairlərin şeirlərini səsləndiriblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı tədbirdə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

- Əziz laçınlılar, əziz dostlar.

İlk növbədə laçınlıları şəhər günü münasibətilə ürəkdən təbrik edirəm. İlk dəfədir ki, Laçında şəhər günü keçirilir, böyük təntənə ilə, böyük coşqu ilə keçirilir. Bildiyiniz kimi, azad edilmiş ərazilərdə bir müddət bundan əvvəl mənim sərəncamımla şəhər günlərinin keçirilməsi haqqında qərar qəbul olunmuş, şəhər günləri təsis edilmişdir. Şəhər günləri şəhərlərimizin azad edilməsi günləridir. Laçın şəhəri isə 26 avqust tarixində tamamilə azad edilmişdir.

İkinci Qarabağ müharibəsi nəticəsində dekabrın 1-də Laçın rayonu işğaldan azad edildi, ancaq Laçın şəhəri və iki kənd - Zabux və Sus kəndləri bizim nəzarətimizdə deyildi. Ona görə ki, keçmiş Laçın dəhlizi bu şəhərdən, bu kəndlərdən keçirdi. Biz qısa müddət ərzində yeni yol çəkərək həm Laçına, həm də Zabux və Sus kəndlərinə qayıtdıq və bu gün səhər zabuxlularla mənim görüşüm olub. Onlar dünən axşam uzun fasilədən sonra - 31 ildən sonra öz doğma kəndlərinə qayıdıblar və artıq burada yaşayırlar. Laçınlılar isə mayın 28-dən etibarən artıq buradadırlar. Mayın 28-də - Müstəqillik Günündə mən birinci qrup laçınlılara onların evlərinin açarlarını təqdim etdim və beləliklə, Laçının dirçəliş dövrü başlamışdır. O vaxtdan bu günə qədər 1000-ə yaxın Laçın sakini şəhərdə məskunlaşmış və ilin sonuna qədər 900 ailə üçün evlər hazır olacaq. Yəni bu ilin sonuna qədər bir neçə min həm şəhər sakini, həm kənd sakini Laçında yaşayacaq. Bu, böyük xoşbəxtlikdir. Bu xoşbəxtliyi bizə bəxş edən bizim müzəffər Silahlı Qüvvələrimizdir. Fürsətdən istifadə edərək bütün şəhidlərimizin əziz xatirəsini hörmətlə yad edir, onlara Allahdan rəhmət diləyirik. Onların qanı-canı bahasına, qəhrəman övladlarımızın şücaəti hesabına bu gün biz buradayıq, bu gün biz doğma torpağımızda bayram şənlikləri keçiririk. Bundan böyük xoşbəxtlik ola bilməz.

Laçının işğala məruz qalması böyük faciə idi, həm laçınlılar üçün, həm bütün Azərbaycan xalqı üçün. Hər bir kəndin, şəhərin işğala məruz qalması böyük faciə idi, amma Laçının işğalı strateji nöqteyi-nəzərindən böyük bir sınaq idi, böyük bir fəlakət idi. Çünki beləliklə Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılırdı və bizim sonrakı itkilərimizin başlanğıcı məhz Şuşa və Laçının itirilməsi idi. May ayı müstəqil Azərbaycanın tarixində bu iki faciəvi günlə əlaqəli idi. Yəni bizim müstəqil həyatımızda may ayı faciəli bir ay idi - çünki 8 mayda Şuşa, 18 mayda Laçın işğal edildi. İşğal bizi içəridən sarsıdırdı və bu işğal digər torpaqlarımızın işğal altına düşməsinin başlanğıcı idi. Çünki birinci Şuşa, ondan sonra Laçın işğal olunmuşdur.

Bu gün biz həm Şuşada, həm Laçında toy-bayram edirik, həm də sakinlər qayıdıb, həyat qayıdıb. Bu gün səhər uşaqlarla bir neçə tədbirdə iştirak edirdim. Onlardan soruşurdum, həm Zabuxda, həm Laçın şəhərində, siz Bakıdan, Sumqayıtdan, digər yerlərdən gəlmisiniz, darıxmırsınız? Xeyr dedilər. Biz öz doğma torpağımızda qürurla yaşayırıq. Hər bir laçınlı, hər bir keçmiş məcburi köçkün bu gün qürur hissi ilə yaşayır. Hər bir azərbaycanlı, Azərbaycanın hər bir yerində bütün Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları qürur hissi ilə yaşayırlar ki, biz tarixi Zəfər çalaraq bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini göstərdik və öz doğma torpağımıza qan tökərək qayıtmışıq. Danışıqlar yolu ilə bunu etmək mümkün deyildi və müharibə yeganə çıxış yolu idi. Biz ədalətli müharibə aparmışıq, biz öz torpağımızda vuruşmuşuq, savaşmışıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, ancaq öz torpağımızı biz heç kimə verən də deyilik. Bu məsələ ilə bağlı hələ işğal dövründə dəfələrlə mən Azərbaycan dövlətinin mövqeyini ifadə edərək deyirdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarına qayıdacaqdır və belə də oldu.

İndi isə biz Laçını qurub-yaradırıq. Laçına keçən ilin sentyabr ayında gələndə şəhərin mənzərəsi çox acınacaqlı idi, şəhər demək olar ki, dağılmış vəziyyətdə idi. Köhnədən qalan, işğaldan əvvəlki dövrə aid olan bir neçə yöndəmsiz bina mövcud idi. Bildiyiniz kimi, burada Ermənistan dövləti hərbi cinayət törədərək qanunsuz məskunlaşma aparırdı. Xüsusilə xarici ölkələrdən, Yaxın Şərqdən erməniləri buraya dəvət edib onları bizim, azərbaycanlıların evlərində yerləşdirmişdi. Bu, bir daha demək istəyirəm ki, hərbi cinayətdir. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar, Ermənistanın havadarları buna göz yumurdular. Bu, onlar üçün məqbul idi. Çünki Ermənistan dövləti kimi, Ermənistanın xaricdəki havadarları da hesab edirdilər ki, bu torpaqlar əbədi işğal altında qalmalıdır. Bizim iradəmiz, bizim gücümüz, bizim yumruğumuz onların da başına dəydi. Çünki bizim torpağımızda ikinci Ermənistan, ikinci erməni dövlətinin yaradılması təkcə Ermənistan rəhbərliyinin məhsulu deyildi.

Bu gün isə biz bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik. Müharibədən sonra keçən 3 ilə yaxın müddətdə də bunu sübut etməyə məcburuq. Çünki bizə qarşı aparılan kampaniya, çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq. Çünki biz qurub-yaradan xalqıq. Laçın şəhərini cəmi 8 ay ərzində qurub-yaratmaq xalqımızın həm istedadını, həm iradəsini göstərir və eyni zamanda onu göstərir ki, bu torpaqların sahibləri bizik. Ermənistan 30 il ərzində torpaqlarımızı işğal altında saxlayıb.

*Ardı 6-cı səh.*

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Laçına səfəri**

# Dirçələn Laçın, Qarabağ, Şərqi Zəngəzur

## Biz istədiyimizə hər zaman nail oluruq

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Həkəri çayının sahilində keçirilən Laçın Şəhəri Günü bayram tədbirində iştirak ediblər











*Əvvəli 5-ci səh.*

Azad edilmiş ərazilərə hər gələn insan öz gözləri ilə erməni vəhşiliyinin təzahürlərini görür. Əgər bu torpaq onlara məxsus idisə, nə üçün şəhərlər, kəndlər viran qoyulub, nə üçün bütün tarixi abidələr dağıdılıb? Onlar da bilirdilər ki, gec-tez biz gələcəyik, biz də bilirdik ki, gec-tez biz gələcəyik. İşğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşlərdə mən deyirdim ki, gün gələcək biz öz bayrağımızı Laçında, Şuşada, o vaxt işğal olunan digər şəhərlərdə qaldıracağıq.

Xatırlayıram, 50 yaşım tamam olanda mən laçınlılarla Qarabağda, Qarabağın Ağcabədi rayonunda, Taxtakörpü qəsəbəsində görüşmüşdüm və onlara demişdim ki, - yeni köçkün şəhərciyi açılırdı, - dövlət sizi daha yaxşı şəraitlə təmin edir, ancaq torpaqlarımız azad olunandan sonra sizin üçün Laçında daha gözəl şərait yaradacağıq və belə də oldu. Əlli yaşımı Ağcabədidə laçınlılarla qeyd etmişəm, 60 yaşımı Şuşada qeyd etmişəm, Cıdır düzündə, bu gün də Laçın Şəhəri Günündə sizinlə birlikdə bu bayram tədbirlərində iştirak edirəm. Bu, böyük xoşbəxtlikdir, mənim üçün, sizin üçün, hər birimiz üçün. Biz xoşbəxt günlər yaşayırıq və əminəm ki, xalqımız bundan sonra sülh, əmin-amanlıq şəraitində yaşayacaq, öz doğma torpağında qurub-yaradacaqdır. Laçın rayonunun timsalında biz dirçələn Azərbaycan reallıqlarını görürük, dirçələn torpaqları görürük.

Bir məsələyə də toxunmaq istərdim. Bildiyiniz kimi, bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi qoyulmuşdur. Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik. Nə qədər bizə təzyiqlər oldu, nə qədər hədə-qorxular oldu. Bu gün də davam edir, bu gün də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar bizə qarşı müxtəlif fitnələr ortaya atırlar. Heç bir şey bizi yolumuzdan döndərə bilməz. 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Sərhəd-buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir və bunu biz beynəlxalq hüquq çərçivəsində etdik, biz öz ərazimizi qoruyuruq, öz sərhədlərimizi qoruyuruq və qoruyacağıq.

Ona görə Laçın rayonu ilə bağlı bir çox önəmli tarixi hadisələr baş vermişdir. Bu gün Laçın şəhəri görün necə də gözəldir, cəmi 8-9 ay ərzində, heç bir il keçməyib. Biz bərpa işlərinə keçən ilin oktyabr ayında başlamışdıq, artıq bu gün biz Laçında qonaqları qəbul edirik. Azərbaycanın müxtəlif yerlərindən qonaqlar gəlib, xarici ölkələri təmsil edən diplomatlar gəliblər. Bu bir daha göstərir ki, xalqımız öz doğma torpağında qurub-yaradan xalqdır.

Əziz laçınlılar, mən sizi bir daha ürəkdən salamlayıram, şəhər günü münasibətilə təbrik etmək istəyirəm. Əminəm ki, siz öz dədə-baba torpağınızda rahat, xoşbəxt yaşayacaqsınız. Siz buna layiqsiniz. 30 il siz həm fiziki, həm də mənəvi əzab çəkmisiniz. Bu gün isə artıq dirçələn Laçın, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir və onu göstərir ki, biz istədiyimizə hər zaman nail oluruq.

Bir daha sizi təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!

❖ ❖ ❖

Tədbir konsert proqramı ilə davam edib.

❖ ❖ ❖

Konsertdən sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbir iştirakçıları ilə söhbət etdilər.

**Xəbər verildiyi kimi, bu günlər Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Kəlbəcər və Laçın rayonlarına səfər ediblər - bir güllə belə atılmadan döyüşsüz, itkisiz azad edilən Laçın və Kəlbəcərə.**



# Sevinc sevincə qarışdı

## Prezident və birinci xanımın işğaldan azad olunmuş ərazilərimizə növbəti səfəri də çoxsaylı tədbirlərlə yadda qaldı



Uzun illər ev-eşiklərindən köçkün düşmüş kəlbəcərlilərin və laçınlıların yurd həsrətini, torpaq sevgisini onlarla birlikdə canlarında daşıyan Prezidentin və birinci xanımın zəfərdən sonra bu rayonlara etdikləri bütün səfərlərində hiss olunur ki, onlar da hər bir kəlbəcərli və laçınlı qədər sevinir, orada görülən işlərin miqyası, sürətini görəndə qəlbləri ətrafdakı dağlar qədər böyüyür. Bu duyğular son səfər zamanı da hiss olundu.

Hər dəfə olduğu kimi, bu dəfə də Prezident və birinci xanım regionda görülən irimiqyaslı işlərin sürətini gözləri ilə gördülər. Öncə Kəlbəcərdəki "Soyuqbulaq" Kiçik Su-Elektrik Stansiyasının, "İstisu" Mineral Sudoldurma Zavodunun tikintisi və "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlərlə tanış oldular. "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Çıraq-1" və "Çıraq-2" Kiçik Su-Elektrik stansiyalarının açılışında iştirak etmələri də səfər çərçivəsində baş tutdu. Qarabağa və Şərqi Zəngəzura hər səfərində bir kəndin, yaxud bir neçə yaşayış məntəqəsinin təməlini qoyan Prezident bu dəfə də Zar kəndinin təməlini qoydu.

Kəlbəcərdən sonra elə həmin gün Laçına gedən Prezident və Birinci vitse-prezident Laçın Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış oldular. Laçın rayonunda "AzərEnerji"nin "Mişni" və "Alxaslı" Kiçik Su-Elektrik stansiyalarının açılışında iştirak edən Prezident daha sonra Laçın şəhərinə yaxın ərazidə inşa ediləcək mehmanxana kompleksinin təməlini qoydu. Dövlət başçısı Kəlbəcər-Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində görülən işlərlə tanış olduqdan sonra Laçın rayonunun sənaye zonasında fəaliyyətə başlayacaq mebel fabrikinin açılışında iştirak etdi. Bu tədbirin iştirakçıları cənab İlham Əliyevdən və Mehriban xanım Əliyevadan razı qaldıqlarını, onlarla birlikdə olmalarından məmnunluq hissi keçirdiklərini dilə gətirdilər.

Prefabrik modul evlərin istehsalı müəssisəsinin və xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinin fəaliyyəti ilə tanış olan Prezident və birinci xanım "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışında da iştirak etdilər. Təhsilə çox böyük diqqət yetirən dövlət başçısı və təhsilin inkişafında Heydər Əliyev Fondunun rəhbəri kimi önəmli işlər görən Mehriban xanım Əliyeva həmin gün 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılışına da qatıldılar. "Həkəri Balıq Təsərrüfatı"nın açılışındakı iştirak da İlham Əliyevin regiona səfərinin əhəmiyyətindən xəbər verirdi. Prezidentin və Birinci vitse-prezidentin Zabux kəndinin sakinləri ilə görüşü isə bir ayrı sevinc, bir ayrı qürur idi.

Bu qüruru Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Kəlbəcər və Laçından fotolar paylaşmaqla hər kəsə çatdırdı. Paylaşımda deyilir: "Kəlbəcər və Laçında! Allaha min şükür. 25.08.2023". Həmin qürurun davamı olaraq dövlətimizin başçısı və birinci xanım Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində mənzərəli terrasda və Bayraq Meydanının qarşısında keçirilən Laçın Şəhəri Günü bayram şənliklərində iştirak etdilər.

Xatırladaq ki, "Laçın Şəhəri Günü" Prezident İlham Əliyevin imazaladığı sərəncama uyğun olaraq ötən il avqustun 26-dan etibarən qeyd edilir. Bayramın bu tarixdə qeyd olunması Azərbaycan Ordusunun ötən ilin avqustunda Laçın şəhərində yerləşməsi ilə əlaqədardır. Həmin gün Prezident köçkün laçınlıların doğma yurdlarına dönməsi ilə bağlı xoş xəbəri özünün tviter səhifəsində paylaşmışdı: "Bu gün avqustun 26-da biz-azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!"

Həyatın əlamətdar günləri taleyüklü illərdir. Bu illər taleyin xoş anlarını, kədərli məqamlarını özündə saxlayan bir "sandıq" kimi insan ömrünün naxışına çevrilir. Al-əlvan naxışlardan hörülmüş həmin ömür illərin yükünü sahibi ilə birlikdə belədən-belə, elədən-elə daşıyır. Və bir gün gəlir ki, o yük insanın ən gözəl dostuna çevrilir, ömrün uğurlarını taleyinə yazır. Belə tale yazıları insanı yaşadan, böyük işlər görmək üçün güc verən, həyatın qəribəlikləri ilə qoşa addımlamağa həvəsləndirən mistikadır.

Hər insanın taleyində bir hikmət var. Belə bir hikmət bizim Mehriban xanım Əliyevanın da taleyinə yazılıb. Laçın Şəhəri Günü ilə xanım Mehriban Əliyevanın da özəl günü - doğum günü üst-üstə düşür. Nə xoş təsadüf! Bəlkə də alın yazısıdır. Bəlkə də Birinci vitse-prezidentin ömrünə Tanrının hədiyyə etdiyidir. Bəlkə də təkcə Mehriban xanıma yox, qoşa qanad olan Əliyevlər ailəsinin tarix qarşısındakı xidmətlərinə verilən Tanrı mükafatıdır.

Prezident bir ölkənin təkcə rəsmi rəhbəri deyil. Prezident həm də xalq adlı böyük bir ailənin başçısıdır. O, xalqın sevinci ilə yaşayır, kədərini bölüşür. Xalqının xoş gününə baxıb fərəhlənir, dərdindən sarsılır. Azərbaycan Prezidenti İlham Əliyev məhz bu cür rəhbərdir. O, təkcə Ulu Öndər Heydər Əliyevin övladı deyil, həm də Azərbaycan xalqının oğludur. Xalqın oğlu olmaq ən böyük dəyərdir, ən qiymətli statusdur. İlham Əliyev bu statusu 2003-cü ildə alıb və 20 ildir yorulmadan çiyinlərində daşıyır. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" deyən İlham Əliyev bu sözləri ilə xalqın oğlu olduğunu dünyaya bəyan edir. Ona görə də təkcə Azərbaycanda deyil, dünyanın başqa yerində yaşayan azərbaycanlılar da onu sevir, ona etimad edir, güvənirlər.

Xalqın böyük rəhbəri və layiqli oğlu ənənəvi olaraq hər il doğum gününü keçmiş köçkün və şəhid ailələri ilə, işğaldan azad olunmuş rayonlarda keçirir. Artıq bu bir ənənəyə çevrilib. Birinci vitse-prezidentin də doğum gününü Laçında - Laçın Şəhəri Günündə qeyd etməsi bu ənənənin davamıdır. Ənənələr həm xalqın, millətin varlığına dəlalət edir, həm də xalqın övladlarını yaşadır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Laçında atəşfəşanlıq





Avqustun 26-da ilk dəfə keçirilən Laçın Şəhəri Gününün yaddaqalan məqamlarından biri də axşam saatlarındakı atəşfəşanlıq olub.

AZƏRTAC xəbər verir ki, möhtəşəm atəşfəşanlığı şəhərin hər bir tərəfindən izləmək mümkün olub.

Atəşfəşanlıq böyük maraqla qarşılanıb.

# Heydər Əliyev Fondu uşaqlar üçün növbəti şənlik təşkil edib

















**Avqustun 26-da Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə valideyn himayəsindən məhrum uşaqlar üçün növbəti şənlik təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, uşaqlara bəxş edilən sevinclə dolu gün ərzində DJ-lər, animatorların iştirakı ilə müxtəlif proqramlar, əyləncələr təqdim olunub. Uşaqlar müxtəlif rəqslər ifa edib, öz məharətlərini göstəriblər.

Uşaq evlərinin sakinləri bu günün təəssüratını nahar süfrəsində bir-biri ilə maraqlı söhbətlər edərək paylaşıblar. Şənlik 1 saylı Uşaq Evinin 2 sakini - Əli Həmidov və Qənirə Zeynalova, 3 saylı Uşaq Evinin sakini Cihan İsimxanlının ad günlərinə təsadüf edib. Heydər Əliyev Fondunun təşkil etdiyi əyləncə bu gün həm ad gününü qeyd edən uşaqlar, həm də uşaq evlərinin digər sakinləri üçün yaddaqalan xatirəyə çevrilib.

Şənliklə bağlı təəssüratlarını AZƏRTAC-la bölüşən 1 nömrəli Uşaq Evində məskunlaşan Aysu Namazova bildirib ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə çox gözəl şənlik təşkil olunub. O, Heydər Əliyev Fondu tərəfindən uşaqlara göstərilən mütəmadi qayğıya görə təşəkkürünü ifadə edib.

Sonda gözəl gündən xatirə olaraq hər bir uşağa fondun hədiyyələri təqdim olunub.

Qeyd edək ki, Heydər Əliyev Fondunun gördüyü işlər sırasında valideyn himayəsindən məhrum, eləcə də xüsusi qayğıya ehtiyacı olan uşaqların diqqətdə saxlanılması xüsusi yer tutur. Fond mütəmadi olaraq belə tədbirlər təşkil etməklə bu kateqoriyadan olan uşaqların hərtərəfli qayğı ilə əhatə edilməsinin vacibliyinə cəmiyyətin diqqətini bir daha yönəldir.

# Laçın Şəhəri Günü tədbirləri çərçivəsində "Arşın mal alan" operettası təqdim olunub







**Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçında keçirilən şəhər günü tədbirləri davam edir.**



AZƏRTAC xəbər verir ki, Laçın Şəhəri Günü tədbirləri çərçivəsində avqustun 26-da Həkəri çayının sahilində, bulvar ərazisindəki əsas səhnədə Azərbaycan Dövlət Akademik Musiqili Teatrının təqdimatında dahi bəstəkar Ü.Hacıbəylinin "Arşın mal alan" operettası nümayiş etdirilib.

Aktyor heyətinin məharətli çıxışı səhnə əsərini daha baxımlı edib və tamaşa maraqla qarşılanıb.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 287 QƏRAR Bakı şəhəri, 26 avqust 2023-cü il

## "Binalar üçün minimum enerji effektivliyi Normaları"nın təsdiq edilməsi haqqında

"Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 avqust tarixli 1433 nömrəli Fərmanının 1.1.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Binalar üçün minimum enerji effektivliyi Normaları" təsdiq edilsin (əlavə olunur).

2.Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə razılaşdırmaqla on səkkiz ay müddətində binalarda enerji effektivliyini təmin etmək məqsədilə qüvvədə olan tikinti norma və qaydalarının təkmilləşdirilməsini təmin etsin.

3.Azərbaycan Respublikasının Energetika Nazirliyi Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırmaqla bu Qərarın 2-ci hissəsi ilə təkmilləşdirilmiş tikinti norma və qaydaları əsasında "Binalarda enerji sərfinin hesablanması metodologiyası"nı altı ay müddətində hazırlayıb təsdiq etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 26 avqust tarixli 287 nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

## Binalar üçün minimum enerji effektivliyi NORMALARI

**1. Ümumi müddəalar**

1.1. "Binalar üçün minimum enerji effektivliyi Normaları" (bundan sonra - Normalar) "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 avqust tarixli 1433 nömrəli Fərmanının 1.1.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və enerji effektivliyi sinifləri üzrə binaların minimum enerji effektivliyi normalarını müəyyən edir.

1.2. Bu Normalarda istifadə olunmuş əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **binanın enerji effektivliyi sinfi** - istismarda olan və ya layihələndirilən binanın enerji effektivliyini xarakterizə edən binanın enerji istehlakının qənaətlilik səviyyəsi;

1.2.2. **binanın enerji sərfi** - binanın istilik və soyutma itkilərinin kompensasiyası, isti su, işıqlandırma, havalandırma üçün tələb olunan enerjinin miqdarı;

1.2.3. **binalarda enerji sərfinin hesablanması metodologiyası** - tikinti norma və qaydalarına əsaslanan və binaların enerji sərfiyyatına (istilik təchizatı, soyuqluq təchizatı, isti su, işıqlandırma, havalandırma) təsir edən bütün parametrlər nəzərə alınmaqla binada sərf edilən enerjinin hesablanması metodologiyası;

1.2.4. **binalar üçün enerjinin normalaşdırılan xüsusi sərfi** - binanın istilik təchizatı, soyuqluq təchizatı, isti su, işıqlandırma və havalandırma üçün sərf edilən enerjinin normalaşdırılmış sərfi;

1.2.5. **bərpa olunan enerji mənbələri hesabına istehsal edilən enerji** - ətraf mühitdə daim mövcud olan, yaxud mütəmadi yaranan enerji mənbələri (hidroenerji, külək enerjisi, günəş enerjisi, geotermal enerji, biokütlə enerjisi, dəniz və okeanlarda dalğa enerjisi, qabarma və çəkilmə enerjisi, su axınlarının enerjisi və s.) hesabına istehsal edilən enerji;

1.2.6. **ilkin enerji resursları** - heç bir çevrilmə və ya transformasiya prosesinə məruz qalmayan enerji resursları.

1.3. Bu Normalarda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

**2. Binanın enerji effektivliyi sinifləri üzrə minimum enerji effektivliyi normaları**

2.1. Azərbaycan Respublikasında binalar üçün aşağıdakı enerji effektivliyi sinifləri və siniflər üzrə minimum enerji effektivliyi normaları tətbiq olunur:

| Sinfin işarəsi | Enerji effektivliyi sinfinin adı | Bina üçün enerjinin faktiki (hesablanmış) sərfinin bina üçün enerjinin normalaşdırılan xüsusi sərfindən kənarlaşma göstəricisi (faizlə) |
|---|---|---|
| A | Çox yüksək | - 51-dən az |
| B | Yüksək | - 10-dan - 50-dək |
| S | Normal | - 9-dan + 5-dək |
| D | Aşağı | + 6-dan +75-dək |
| E | Çox aşağı | +75-dən çox |

Qeyd. Kənarlaşma = (hesablanmış sərf - normalaşdırılan xüsusi sərf) / normalaşdırılan xüsusi sərf) x 100.

2.2. Binanın enerji effektivliyi sinfi "Binalarda enerji sərfinin hesablanması metodologiyası" üzrə binaların istilik təchizatı, soyuqluq təchizatı, havalandırma, isti su təchizatı, habelə binanın işıqlandırılması üçün enerjinin illik istehlak göstəriciləri nəzərə alınmaqla (bərpa olunan enerji mənbələrindən alınan enerji istisna olmaqla), binanın bir kvadratmetr sahəsi üçün hesablanmış faktiki illik enerji sərfinin bina üçün enerjinin normalaşdırılan xüsusi sərfindən kənarlaşma göstəricisi əsasında müəyyən edilir.

**3. Binalarda enerji sərfinin hesablanması metodologiyası**

3.1. Binalarda enerji sərfinin hesablanması metodologiyası binaların enerji sərfiyyatına təsir edən və bu Normaların 3.3-cü bəndində qeyd olunan parametrləri nəzərdə tutur. Hesablama ilkin enerji resursları əsasında aparılır. Bərpa olunan enerji mənbələrindən alınan enerji resursları istisna olunmaqla, digər mənbələrdən istixana qazlarının ətraf mühitə olan emissiyalarının hesablanması metodologiyada öz əksini tapır.

3.2. Binalar üçün enerjinin normalaşdırılan xüsusi sərfi aşağıdakı kateqoriya (tip) binalar üçün müəyyən edilir:

3.2.1. yaşayış binaları, mehmanxanalar, sosial xidmət müəssisələri, yataqxanalar;

3.2.2. tibb müəssisələri;

3.2.3. təhsil müəssisələri;

3.2.4. istehsalat binaları və anbarlar;

3.2.5. inzibati təyinatlı binalar (ofislər);

3.2.6. digər ictimai binalar.

3.3.Binalarda enerji sərfinin hesablanması metodologiyasında bu Qaydanın 3.2-ci bəndində qeyd edilən kateqoriya (tip) binalar üzrə aşağıdakı parametrlər nəzərə alınır:

3.3.1. binanın qoruyucu konstruksiya elementlərinin istilikötürmə müqaviməti;

3.3.2. binanın qoruyucu konstruksiyalarının havanüfuzetmə qabiliyyəti;

3.3.3. binanın qoruyucu konstruksiyalarının nəmlənmədən mühafizəsi;

3.3.4. mərkəzi isitmə və soyuqluq təchizatı sistemləri, isti su təchizatı, o cümlədən onların izolyasiyasının xarakteristikası;

3.3.5. daxili iqlim şərtləri, o cümlədən layihələndirilmiş daxili hava kondisiyalaşdırması;

3.3.6. təbii və mexaniki havalandırma sistemləri;

3.3.7. işıqlandırma (təbii və ya süni) sistemləri;

3.3.8. binanın konstruksiyası, cəhətlənməsi, o cümlədən iqlim şərtləri;

3.3.9. bərpa olunan enerji mənbələri hesabına istehsal edilən enerjidən istifadə.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 288 QƏRAR Bakı şəhəri, 26 avqust 2023-cü il

## "Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992, № 11, maddə 1404; 2021, № 1, maddə 102, № 4, maddə 412, № 7, maddə 883, № 8, maddə 963, № 10, maddə 1168, № 12, maddə 1540; 2022, № 3, maddə 260, № 4, maddə 418, № 6, maddə 667, № 8, maddə 963, № 9, maddə 1094, № 12, maddə 1537; 2023, № 1, maddə 142, № 3, maddələr 434, 441, № 5, maddə 728) 2-ci hissəsində "iyulun 1-dək" sözləri "oktyabrın 2-dək" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Türkiyənin milli müdafiə naziri Bakıya rəsmi səfərə gəlib





Avqustun 26-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Gülerin başçılıq etdiyi nümayəndə heyətini Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, rəsmi səfər çərçivəsində ölkələrimiz arasında hərbi əməkdaşlığın müxtəlif aspektləri, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirə edilməsi nəzərdə tutulub.

# Azərbaycan XİN başçısının müavini Avstriyada səfərdə olub

Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Fariz Rzayevin Avstriya Respublikası səfəri baş tutub. Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, səfər zamanı F.Rzayev Avstriya Respublikasının Avropa və Beynəlxalq Məsələlər üzrə Federal Nazirliyinin baş katibi Peter Launskiy-Tiffenthal, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) baş direktoru Rafael Qrossi, BMT-nin Kosmik Fəza Məsələləri İdarəsinin (UNOOSA) direktoru vəzifələrini icra edən Niklas Hedman ilə ikitərəfli görüşlər keçirib, BMT-nin Vyana bölməsində "Azərbaycanın kosmik fəzada yeri: 74-cü Beynəlxalq Astronavtika Konqresi, Bakı Azərbaycan" başlığı altında keçirilən sərginin açılış mərasimində iştirak edib.

Avstriya Respublikasının Avropa və Beynəlxalq Məsələlər üzrə Federal Nazirliyinin baş katibi Peter Launskiy-Tiffenthal ilə keçirilmiş görüşdə Azərbaycan ilə Avstriya arasında ikitərəfli münasibətlər, siyasi, iqtisadi və humanitar sahələrdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

Qarşı tərəf postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycanın regionda sülh və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində davamlı fəaliyyəti, habelə Ermənistan tərəfindən törədilən təxribatlar barədə məlumatlandırılıb.

Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin baş direktoru Rafael Qrossi ilə baş tutmuş görüş zamanı Azərbaycan ilə AEBA arasında inkişaf edən əməkdaşlıq münasibətləri, nüvə texnologiyalarının sülh məqsədləri üçün istifadəsi, AEBA-nın texniki əməkdaşlıq proqramı çərçivəsində Azərbaycanda həyata keçirilən layihələr, o cümlədən kənd təsərrüfatı sahəsində nüvə texnologiyalarının tətbiqi ilə əldə olunan uğurlu təcrübələr barədə geniş müzakirələr aparılıb.

BMT-nin Kosmik Fəza Məsələləri İdarəsinin direktoru vəzifəsini icra edən Niklas Hedman ilə keçirilmiş görüşdə UNOOSA ilə Azərbaycan arasında mövcud olan uğurlu əməkdaşlıq münasibətlərinə diqqət çəkilib. Son dövrlər Azərbaycanın kosmik sənaye sahəsində sürətlə inkişaf edən ölkələrdən birinə çevrildiyi və mühüm uğurlara imza atdığı vurğulanıb. Kosmik sənaye sahəsində dünyada ən böyük tədbir olan Beynəlxalq Astronavtika Konqresinin Azərbaycanda keçirilməsinin bunun bariz nümunəsi olduğu bildirilib.



Səfər çərçivəsində F.Rzayev BMT-nin Vyana bölməsində "Azərbaycanın kosmik fəzada rolu: 74-cü Beynəlxalq Astronavtika Konqresi, Bakı Azərbaycan" başlığı altında keçirilən sərginin açılış mərasimində iştirak edib.

Tədbirdə çıxış edən nazir müavini Azərbaycanın kosmik sənaye fəaliyyəti barədə ətraflı məlumat verib.

F.Rzayev 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan olunduğunu vurğulayaraq, məhz bu il 74-cü Beynəlxalq Astronavtika Konqresinin Bakıda keçirilməsinin Ümummilli Liderin anadan olmasının 100 illiyinə təsadüf etməsinin ölkəmiz üçün əhəmiyyətini diqqətə çatdırıb. Həmçinin qeyd olunub ki, məhz 50 il əvvəl, 1973-cü ildə Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyi zamanı ölkəmiz 24-cü Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi edib.

F.Rzayev ölkəmizin müstəqilliyinin ilk illərində Ümummilli Liderin Azərbaycanın həyatında oynadığı misilsiz rol barədə məlumat verib və bu gün ölkəmizin bütün sahələrdə, o cümlədən kosmik sənaye sahəsində əldə etdiyi nailiyyətlərinin Heydər Əliyevin uzaqgörən siyasətinin və strategiyasının bəhrəsi olduğunu vurğulayıb.

Həmçinin Azərbaycanın kosmik fəza sahəsində əldə etdiyi təcrübə və uğurların işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması istiqamətində müvəffəqiyyətlə tətbiq edildiyi bildirilib.

Tədbirdə BMT-nin Kosmik Fəza Məsələləri İdarəsinin direktoru vəzifəsini icra edən Niklas Hedman, BMT-nin Vyana ofisinin icraçı direktoru adından tədbirdə iştirak edən Jean Luc Lemahieu, 74-cü Beynəlxalq Astronavtika Konqresinin layihə rəhbəri və "Azərkosmos"un departament rəhbəri Rəna Cəfərova, Beynəlxalq Astronavtika Federasiyasının keçmiş prezidenti Pascale Ehrenfreund və digər qonaqlar çıxış ediblər. Çıxışlarda Azərbaycanın kosmik sahədə əldə etdiyi nailiyyətlərin və Bakıda keçiriləcək 74-cü Beynəlxalq Astronavtika Konqresinin əhəmiyyəti vurğulanıb.

# Bakıda klassik avtomobillərin növbəti sərgisi keçirilib





**Azərbaycan Avtomobil Federasiyası (AAF) və "Zhara Events"in təşkilatçılığı ilə Bakıda klassik avtomobillərin sərgisi keçirilib.**

AZƏRTAC xəbər verir ki, sərgidə avqustun 27-də keçiriləcək yürüş üçün qeydiyyatdan keçmiş klassik avtomobillər, eləcə də Heydər Əliyev Mərkəzində nümayiş etdirilən avtomobil sərgisinin eksponatları sırasında olan bəzi nəqliyyat vasitələri yer alıb. Ümumilikdə sərgidə 140-dan çox avtomobil nümayiş olunub.

Heydər Əliyev Mərkəzinin qarşısında təşkil olunan sərgidə unikallığı ilə seçilən avtomobil də yer alıb. Məlum olduğu kimi, dünya təcrübəsində nadir hallarda avtomobillərə fərqli dekorativ kompozisiyalar quraşdırılaraq müxtəlif incəsənət nümunələri yaradılır. Azərbaycanda ilk dəfə avtomobil üzərində nəbati elementlərdən ibarət dekorativ kompozisiya məhz "QAZ-M21 Volqa" avtomobili üzərində yaradılıb. Bu, avtomobil üzərində quraşdırılan unikal dekorativ-tətbiqi sənət kompozisiyalarından biri hesab olunur.

Sərgidə 1983-cü ilədək istehsal olunmuş retro nəqliyyat vasitələri nümayiş etdirilib. Ən qədim avtomobil isə 1931-ci il istehsalı olan "Ford Model A" markalı maşın olub.

Sərgidə iştirak edən "Mercedes-Benz C-Class 170" avtomobilinin sürücüsü Azər Abıyev AZƏRTAC-a açıqlamasında bildirib ki, bu avtomobil dünyada öz seriyasının birinci versiyasıdır. "2022-ci ildə Almaniyada keçirilən avtomobil sərgisindən almışam. Həftədə bir dəfə - yalnız bazar günləri istifadə edirəm. Bu avtomobildən Azərbaycanda bir dənədir", - deyə o əlavə edib.

"Harley-Davidson" markalı motosikletin sahibi Vladislav Vologin nəqliyyat vasitəsinin 1938-ci ilə məxsus olduğunu söyləyərək bildirib: "Bu, mənə babamdan qalıb. Hazırda çox az adam bundan istifadə edir".

Sərgiyə 1926-cı il istehsallı "Moskvich"i ilə qatılan Araz Kərimov isə nəqliyyat vasitəsini beş il əvvəl Polşadan gətirdiyini vurğulayıb. O deyib: "Avtomobili təxminən 1500 dollara almışam. Bu cür köhnə avtomobillərə uşaqlıqdan həvəsim var".

Qeyd edək ki, klassik avtomobillər avqustun 27-də Heydər Əliyev Mərkəzinin qarşısından start götürərək "Sea Breeze" İstirahət Mərkəzinədək yürüş edəcəklər.

Əlli kilometrdən çox məsafəni qət edərək "Sea Breeze" İstirahət Mərkəzinə çatacaq klassik avtomobillərin orada da sərgisi təşkil olunacaq. Tamaşaçılara həmçinin tanınmış ifaçıların iştirakı ilə konsert proqramı təqdim ediləcək.

Əyləncə proqramına müsabiqələrin keçirilməsi, müxtəlif nominasiyalarda hədiyyələrin təqdimatı da daxildir.

# Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılması ölkəmizin legitim hüququ və onun gücünün təcəssümüdür

**26 avqust tarixi Laçın Şəhəri Günüdür və bu təqvim ölkəmiz üçün olduqca əlamətdardır. Şanlı Azərbaycan Ordusu məhz bu tarixdə 30 ilə yaxın müddət ərzində işğal altında qalmış Laçın şəhərinə, Zabux və Sus kəndlərinə daxil olaraq, onları tam nəzarətə götürdü. Böyük qayıdış planı çərçivəsində artıq Laçına ilk köç başlayıb. Uzun illər dədə-baba yurd-yuvasından, evlərindən məcburi köçkün düşmüş həmvətənlərimiz öz doğma yurdlarına geri qayıdırlar. Məhz bu gün şahidlik etdiyimiz tarixi anlar dövlət başçısının iradəsi və rəşadətli ordumuzun əzmi sayəsində mümkün oldu.**



44 günlük Vətən müharibəsi gücümüzü dünyaya nümayiş etdirdi, beynəlxalq müstəvidə tanınmış ərazi bütövlüyümüz və suverenliyimiz bərpa edildi. Bu gün şanlı Azərbaycan bayrağının işğaldan azad edilmiş ərazilərdə dalğalanması qələbəmizin ən böyük təcəssümüdür.

Tarixi zəfərimizdən sonra ən böyük hadisələrdən biri də məhz dövlət sərhədimizin yaradılması oldu. Sərhədin toxunulmazlığı dövlətin qüdrətini təcəssüm etdirir. Bu məqsədlə də bu il aprelin 23-də Laçın rayonunda Həkəri çayının üzərində Laçın sərhəd-buraxılış məntəqəsi fəaliyyətə başladı. Azərbaycan-Ermənistan sərhədi təsis edilməklə ölkələr arasında keçidin, hərəkətin təhlükəsizliyi təmin edildi. Laçın sərhəd-buraxılış məntəqəsi erməniəsilli Azərbaycan vətəndaşlarının təhlükəsizliyini təmin etməklə bərabər, həm də işğal altındakı ərazilərimizdə vaxtilə yerləşdirilmiş qeyri-qanuni birləşmələrin rotasiyasının qarşısını alır. Terrorçu dəstələr vaxtilə sərhədin olmamasından istifadə edərək, rahat şəkildə hərəkət etmiş, eləcə də bu yoldan silah, sursat və başqa avadanlıqlar daşınmışdır.

Azərbaycanın legitim hüququ əsasında təsis edilmiş Laçın sərhəd-buraxılış məntəqəsi terrorçuların silahlanmasının qarşısını almaqla bərabər, ölkəmizə məxsus olan sərvətlərin talanaraq aparılmasına imkan vermir. Sərhəd rejimi qısa müddət ərzində öz uğurlu nəticəsini verməkdədir. Uzun illər həmvətənlərimizə qarşı kütləvi soyqırımı cinayəti törətmiş Vaqif Xaçaturyan məhz Laçın sərhəd-buraxılış məntəqəsində saxlanılmışdır. Bu gün Ermənistanın sərhəd-buraxılış məntəqəsi ilə bağlı narahatlığının yeganə səbəbi də məhz terrorçuları himayə etməsidir.

Məğlubiyyətlə barışmaq istəməyən Ermənistan havadarlarından güc alaraq siyasi manipulyasiyalar edir. İlk növbədə bunu dəqiqləşdirmək lazımdır ki, bu gün əsassız olaraq humanitar böhranın olmasını qeyd edən bəzi dairələr nəyə görə BMT-nin Ermənistanın Azərbaycana təcavüzünü pisləyən 4 qətnaməsi olmasına baxmayaraq, Ermənistandan işğala son qoymasını tələb etməmişlər. 30 il ərzində torpaqlarımızı təcavüz altında saxlayan Ermənistana törətdiyi cinayətlərə görə bir dəfə də olsun münasibət bildirməyiblər. Ermənistanın hər addımda haqsız mövqeyini dəstəkləyən "himayədarları"nın bugünkü bəyanatları kimə lazımdır?!

Azərbaycan dövlətinin humanistliyi hər kəsə məlumdur. Məhz Ermənistan kapitulyasiya aktına qol çəkəndən sonra ölkəmizin hərbi əməliyyatları dayandırması, erməniəsilli Azərbaycan vətəndaşlarının təhlükəsizliyini təmin etməsi bunun sübutudur.

Bu gün Azərbaycan humanitar yüklərin daşınmasına etiraz etmir. Bunun üçün hətta təklif edib ki, yüklər Ağdam-Xankəndi yolu ilə daşınsın. Əgər məqsəd yüklərin daşınmasıdırsa, bununla bağlı alternativ var, yox, əgər Ermənistan hansısa havadarına güvənib qeyd edirsə ki, məhz yükləri Laçın sərhəd-buraxılış məntəqəsindən keçirməlidir, onda bu, mümkün olmayacaqdır.

Azərbaycan zəfər qazanmış dövlətdir, heç kəs bizimlə şərtlə və ya hədə ilə danışa bilməz. Təəssüf ki, Ermənistan hələ də məkrli siyasətindən əl çəkmir. Hər kəsə məlumdur ki, Xankəndidə yaşayan ermənilərin onlar üçün heç bir əhəmiyyəti yoxdur. Məqsədləri onlara yardım etmək deyil, hətta onların taleyi belə Ermənistan üçün maraqlı deyil. Belə olmasaydı, Xankəndidə yaşayanların adlarından istifadə edərək təxribat törətməz, özlərini isə informasiya blokadasında saxlamazdılar.

***Adil ƏLİYEV,***
***Milli Məclis Sədrinin müavini***

# Azərbaycan ilə Moldova dost və tərəfdaş ölkələrdir



**Moldova özünəməxsus tarixə və mədəniyyətə malikdir. Onun iqtisadiyyatı həm aqrar, həm də sənayeyönümlüdür. Son illər ölkə iqtisadiyyatının artımını nəzərdə tutan bir sıra mühüm addımlar atılmışdır. 2023-cü ildə Moldova iqtisadiyyatının 3,5 faiz artacağı planlaşdırılır. Bu göstəricinin 2025-ci ildə 4 faiz, 2026-cı ildə isə 4,5 faiz təşkil edəcəyi nəzərdə tutulur. Bu proqnoz əsasən kənd təsərrüfatı bölməsinə bəslənilən ümidlərə əsaslanır.**

Ölkənin iqtisadi inkişaf göstəriciləri ürəkaçandır. 2022-ci ildə Moldovada ümumi daxili məhsulun həcmi 14.42 milyard dollar olmuşdur. Adambaşına düşən ümumi daxili məhsulun miqdarı isə 3.474 dollar təşkil etmişdir. 2023-cü ilin iyuluna olan məlumata görə, ölkənin xarici valyuta ehtiyatları 4.915 milyard dollar olmuşdur.

Son zamanlar Moldovada ixracyönümlü yeni istehsal sahələrinin yaradılmasına və onların həvəsləndirilməsinə ciddi diqqət yetirilir. 2023-cü ilin iyununa olan məlumata əsasən, ixracatın həcmi 317 milyon dollar təşkil etmişdir. İxrac mallarına əsasən qida məhsulları, əczaçılıq məhsulları, şirələr, spirtli içkilər, geyim, maşınlar və avadanlıqlar daxildir. Bu dövrdə idxalatın həcmi 665 milyon dollar təşkil etmişdi. İdxal mallarına neft və neft məhsulları, enerji daşıyıcıları, nəqliyyat vasitələri, geyimlər, dərmanlar daxildir.

Son illər rəsmi Kişineunun siyasətinin prioritet istiqamətlərindən biri enerji sektorunun davamlılığını artırmaq və Moldovada ərzaq təhlükəsizliyini təmin etməkdən ibarətdir.

Ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayan əmək qabiliyyətli insanların sayı 2023-cü ilin birinci rübündə 865 min nəfər olmuşdur. Moldovada kənd təsərrüfatı və əczaçılıq məhsulları ixracı üstünlük təşkil edir. Bu ölkə eyni zamanda taxıl məhsullarının böyük ixracatçısıdır. Bu sahələrə sərmayə qoyuluşları son illər daha da artıb. 2023-cü ilin birinci rübündə birbaşa xarici sərmayələrin həçmi 143 milyon dollara çatmışdır. Ümumiyyətlə, Moldovada kənd təsərrüfatı sektoruna, ilk növbədə su təchizatı sahəsinə qoyulan investisiyaların həcmi ən azı 500 milyon dollar təşkil edir.

Azərbaycanın xarici siyasətində Moldova dövləti ilə əməkdaşlıq özünəməxsus yer tutur. Xatırladaq ki, bu ölkə Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 21-də tanıyıb. 1992-ci il mayın 8-də Azərbaycan və Moldova arasında diplomatik münasibətlər qurulub. 2005-ci il oktyabrın 5-də Azərbaycanın Moldovada səfirliyi, həmin il noyabrın 1-də isə Moldovanın Azərbaycanda səfirliyi açılıb. Qarşılıqlı münasibətlərin müqavilə-hüquqi bazasını tənzimləmək məqsədilə bu günə qədər Azərbaycan və Moldova arasında 100-ə yaxın sənəd imzalanıb.

Hazırda iki ölkə arasındakı münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Moldova və Azərbaycan 1997-ci ilin oktyabrında yaradılan GUAM təşkilatının təsisçiləridir, həmçinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvləridir. Eyni zamanda onlar Avropa Şurasının üzvləridir və 1994-cü ildən etibarən NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşulublar.

Bu iki xalqı və dövləti birləşdirən bir çox cəhət var. Azərbaycan və Moldova separatizmdən əziyyət çəkən ölkələrdir. Elə bu amilin təsiri altında onlar beynəlxalq təşkilatların kürsülərindən bir-birinin ərazi bütövlüyünü daim müdafiə etmişlər.

Son zamanlar siyasi tərəfdaşlıq olduqca normal məcrada inkişaf edir. Keçən il fevralın 10-da Prezident İlham Əliyev ölkəmizdə rəsmi səfərdə olan Moldova Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popeskunu qəbul etmişdir. Azərbaycan və Moldova ikitərəfli formatda da həmrəylik nümayiş etdirirlər. Bu il mayın 31-də isə Kişineuda Prezident İlham Əliyevin Moldova Prezidenti xanım Maya Sandu ilə görüşü oldu.

Həmçinin keçən il oktyabrın 10-da Prezident İlham Əliyev ilə ölkəmizə rəsmi səfərə gələn Moldova Respublikasının Baş naziri Nataliya Qavrilitsa arasında təkbətək görüş oldu, qlobal gündəlikdə duran mühüm məsələlərdən biri olan enerji təhlükəsizliyi məsələsi müzakirə edildi.

İki ölkənin qanunverici orqanları arasında mövcud əməkdaşlıq əlaqələri də yüksək səviyyədədir. Keçən il fevralın 22-də Milli Məclisin Sədri Sahibə Qafarovanın ölkəmizdə səfərdə olan Moldova Respublikası Parlamentinin Sədri İqor Qrosu ilə görüşü oldu. Moldova parlament sədrinin başçılıq etdiyi nümayəndə heyəti işğaldan azad olunmuş ərazilərimizə səfər zamanı həm Ermənistanın işğalçılıq siyasətinin faciəvi nəticələrini, həm də Azərbaycan tərəfindən həyata keçirilən böyük quruculuq və yenidənqurma işlərini öz gözləri ilə gördü.

İki ölkə arasında müxtəlif nazirlik və komitələr arasında əlaqələrin intensivliyi artmışdır. Bu il aprelin 6-7-də Azərbaycan Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Moldovada səfərdə oldu. Səfər çərçivəsində iki ölkənin xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti mərhələsi keçirildi.

Onu da vurğulayaq ki, Moldova müstəqillik əldə etdikdən sonra enerji təhlükəsizliyi sahəsində ona ilk yardım edən ölkə Azərbaycan oldu. Moldova Azərbaycanın timsalında özünün enerji təhlükəsizliyinin təmin olunmasını və enerji şaxələndirilməsini görür. Bu həm neft, həm də qaz sahəsinə aiddir. Eyni zamanda Azərbaycan enerji təchizatının şaxələndirilməsi baxımından Moldovanın əsas tərəfdaşıdır. Bu cəhətdən Moldova kifayət qədər cəlbedici ölkədir.

Keçən ilin oktyabrında Bakıda Azərbaycan Respublikası və Moldova Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 4-cü iclası keçirildi. Görüşdə Moldova ilə Azərbaycan arasında iqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar sektorda əlaqələrin dinamik inkişaf etdiyi vurğulandı.

Hazırda ticarət və investisiya əlaqələri Azərbaycan-Moldova əməkdaşlığının əsas istiqamətlərindən biridir. İki ölkənin qarşılıqlı ticarət dövriyyəsində artım davam etmiş və 2022-ci ildə 3,8 dəfə çoxalma müşahidə olunmuşdur.

Moldovada 115 Azərbaycan şirkəti qeydiyyatdan keçərək fəaliyyət göstərir. Azərbaycanda isə müxtəlif sahələrdə 30-dək Moldova şirkəti fəaliyyət göstərir.

Tərəflər logistika məsələsinə də ciddi önəm verməyə başlayıblar. Moldova son illər Azərbaycan ilə nəqliyyat əməliyyatlarını artırıb. Bu ilin fevralında Moldovanın Baş nazirinin müavini, infrastruktur və regional inkişaf naziri Andrey Spinu başda olmaqla nümayəndə heyətinin Bakıya səfəri və onun İqtisadiyyat Nazirliyində danışıqlar aparması bunula əlaqədar idi.

Müntəzəm olaraq iki ölkə arasında ictimai-siyasi, mədəni-kütləvi tədbirlər, turizm, təhsil və müxtəlif sahələrdə mübadilə proqramları təşkil edilir. Bu il Moldova Dövlət Tarix Muzeyində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sərginin açılış mərasimi olmuşdur.

Göründüyü kimi, iki ölkə arasında münasibətlər həyatın bütün sahələrində inkişaf edərək strateji əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. Yalnız etibarlı dostlar və tərəfdaşlar arasında bu cür münasibətlər ola bilər. Möhkəm əminliklə deyə bilərik ki, Azərbaycan və Moldova arasında qarşılıqlı münasibətlər qarşıdakı illərdə də yeni-yeni uğurlarla yadda qalacaqdır.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***



# Qərb ikili standartlara son qoymalıdır

## Bəzi ölkələrin riyakar açıqlamaları Azərbaycanın artan nüfuzunu həzm edə bilmədiklərini göstərir

**Son günlərdə bəzi Qərb dövlətləri Ermənistanın siyasi manipulyasiyalarına uyaraq, yalançı şoularına inanaraq, Azərbaycan haqqında əsası olmayan bəyanatlar verir, arzuolunmaz fikirlər səsləndirirlər.**



Bu istiqamətdə Fransa, Belçika və Kanadanı göstərmək olar. Bütün dövrlərdə ermənipərəstliyini gizlətməyən, separatçılara daim dəstək verən Fransanı hardasa başa düşmək olur. Amma Belçikanın və Kanadanın rəsmi şəxslərinin erməni uydurmalarına haqq qazandırmaları heç bir məntiqə sığmır.

Həmin ölkələrin rəsmiləri ya öz daxilindəki erməni lobbisinin həyata keçirdiyi siyasi şoulara dəstək verir, ya da İrəvana səfərlər edərək ermənilərin uydurmalarına haqq qazandırırlar. Bəzən isə Azərbaycana gəldikləri halda əsl həqiqətləri eşidib və reallığı gördükdən sonra səhv etdiklərini anlayırlar.

### Erməni yalanlarına haqq qazandıranlar

Elə bu prosesdə Belçika Krallığının xarici işlər, Avropa işləri, xarici ticarət və federal mədəni institutlar naziri Haccə Lhəbibi nümunə göstərmək yetərlidir. Əvvəlcə Azərbaycanın əleyhinə fikirlər səsləndirən, ölkəmizi guya Qarabağda "humanitar böhran" yaratmaqda ittiham edən nazirin Bakıya səfəri zamanı şahidi olduğu reallıq deyilənləri bir daha təsdiqləyir.

Öncə xarici işlər naziri Ceyhun Bayramov belçikalı diplomatla görüşündə əsl həqiqətləri faktlarla onun diqqətinə çatdırdı. Sonra isə Milli Məclisin Sədri Sahibə Qafarova ilə görüşdə Ermənistanın postmüharibə dövründə törətdiyi bütün təxribatlar, həyata keçirdiyi siyasi şoular və sülh müqaviləsinin imzalanmasını gecikdirmək naminə başladığı son siyasi şantajlar barədə məlumatlandırılan Haccə Lhəbib etiraf etdi ki, 30 il ərzində işğal altında olan ərazilərdə çoxlu dağıntılar baş verib. Yəni nazir dolayısı yolla təsdiq etdi ki, dağıntılar məhz erməni barbarları tərəfindən həyata keçirilib.

Kanadanın xarici işlər naziri Melani Joli isə erməni icmasının tədbirində çıxışı zamanı Azərbaycanın Qarabağ bölgəsinə istinadən ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı fikirlər səsləndirib. Kanadanın bölgədə separatçılığı və revanşist qüvvələri dəstəkləyən, ermənipərəst hisslərin açıq şəkildə ifadə olunduğu birtərəfli bəyanatlar səsləndirməsi ilk belə hal deyil. Bu bir daha sübut edir ki, beynəlxalq hüququn norma və prinsiplərinin tələblərinə uyğun davranmayan Kanada regionda dayanıqlı sülhün təmin olunmasında maraqlı deyil. Nəzərə almaq lazımdır ki, vaxtilə BMT-nin yerli xalqların hüquqları haqqında bəyannaməsinə qarşı çıxmış çox az sayda ölkələrdən biri Kanadadır.

Məsələ ilə bağlı bəyanat yayan Azərbaycan Xarici İşlər Nazirliyi Kanadanın bu addımını qətiyyətlə pisləyib. Bəyanatda qeyd olunub ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalını və yüz minlərlə azərbaycanlının insan hüquqlarının pozulmasını qınayan, bu illər ərzində aparılan danışıqlar prosesinə töhfə verəcək və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin həyata keçirilməsini dəstəkləyəcək hər hansı bəyanatla çıxış etməyən Kanada xarici işlər nazirinin Azərbaycan əleyhinə əsassız şəkildə bəyanatlar verməsi qarşı tərəfdən nümayiş etdirilən qərəzli yanaşmanın nümunəsidir. Həmçinin bəyanatda Kanadadan bu kimi təhrikedici addımlardan çəkinmək və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşmaq tələb edilib.

### Qısqanclıqdan doğan riyakarlıq

Azərbaycanın tarixin arxivinə göndərdiyi Qarabağ münaqişəsinin mahiyyəti barədə məlumatsız olan bir sıra dövlətlər, eləcə də Belçika və Kanada Ermənistanın manipulyasiya siyasətinə aldanırlar. Belə dövlətlər ölkəmizin suverenliyi və ərazi bütövlüyü məsələsinə münasibətdə selektiv yanaşmadan çıxış edərək beynəlxalq hüququn norma və prinsiplərini də kobudcasına pozurlar. Bunun əsas səbəblərindən biri də həmin ölkələrdə bütün gücünü anti-Azərbaycan fəaliyyətinə sərf etmiş erməni lobbiçilik institutlarının uydurmalarına ya inanmaq, ya da onların təsir dairəsinə düşməkdir. Lakin onu da yaxşı bilirik ki, bir sıra ölkələrdə hansısa lobbiçilik fəaliyyəti dövlət maraqlarını üstələmək gücündə deyil. Yəni ayrı-ayrı qurumların təmsilçilərinin, dövlət rəsmilərinin gündəmində Azərbaycana qarşı qərəzli kampaniyanın şahidiyiksə, deməli, bu, həmin ölkələrin dövlət səviyyəsində dəstəklənən mövqedir.

Onu da qeyd etmək lazımdır ki, Avropanın enerji təminatında mövcud olan böhranlı vəziyyətin aradan qaldırılması üçün Azərbaycanın əvəzsiz rol oynadığı heç kimə sirr deyil. Görünür, ölkəmizin Avropanın enerji təhlükəsizliyində əsas iştirakçıya çevrilməsi bir sıra dövlətlərin qısqanclığına səbəb olur. Ona görə də Ermənistanın oynadığı müxtəlif siyasi şoulara uyaraq, ölkəmiz əleyhinə əsassız fikirlər səsləndirir və bəyanatlar verirlər.

### Kanadalı nazir erməni icmasını məmnun etmək istəyir

Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunduğu kimi, davamlı olaraq Azərbaycan əleyhinə mövqe sərgiləyən, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləməsinə və onların öz evlərinə qayıtmasına imkan verməməsinə göz yuman kanadalı nazir nədənsə Azərbaycanın beynəlxalq hüquqa uyğun şəkildə atdığı legitim addımlardan xoflanır və ölkələrin suverenliyi və ərazi bütövlüyünə münasibətdə ikili standartlar yanaşmasından çıxış edir.

Tarixi yerli xalqlara qarşı ədalətsizliklər, ayrı-seçkiliklərlə dolu olan Kanadanın erməni sakinlərin bu formada müdafiəsinə qalxması, doğrudan da, anlaşılan deyil. Bu ölkənin növbəti anti-Azərbaycan açıqlaması tərəfimizdən qətiyyən qəbul edilmir və Azərbaycanın suveren ərazilərinə münasibətdə qondarma, əcaib addan istifadə etməsi kəskin şəkildə pislənilir. Həmçinin kanadalı nazirin erməni icmasını məmnun etmək üçün düşdüyü acınacaqlı vəziyyətə acıyır və onun Azərbaycana qarşı qondarma açıqlamalarını rədd edirik.

### Ermənipərəst mövqe tutan dövlətlər regionda maraqlarını təmin edə bilməzlər

Azərbaycan həmişə bütün dünya dövlətləri, o cümlədən də Kanada ilə beynəlxalq hüquq prinsipləri əsasında xoş münasibətlər qurmaq, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək niyyətini bəyan edib. Bu gün ölkəmizə qarşı qısqanclıq nümayiş etdirib, ermənipərəst mövqe tutan bəzi dövlətlər regionda maraqlarını təmin etmək istəyirlərsə, Azərbaycanla bərabərhüquqlu tərəfdaşlıqlarını təmin etməlidirlər. Çünki Azərbaycan xüsusilə 44 günlük Vətən müharibəsində qazandığı şanlı zəfəri sayəsində regionun ən güclü və diktəedən dövlətinə çevrilib. Belə olan halda "yazıq", "məzlum" maskasını geyinib, amma təxribat və cinayətlərindən əl çəkməyən, məğlub Ermənistanı müdafiə etmək, ermənilərə saxta dəstək göstərmək regionda siyasi mövcudluğu qoruyub saxlamağa kömək etməz.

Ona görə də Kanada və onun kimi riyakar davranışlar sərgiləyən dövlətlər ikili standartlara və selektiv yanaşmalara birdəfəlik "yox" deməlidirlər. Onsuz da belə əsassız ittiham və bəyanatlar, qətnamə adı verdikləri kağız parçaları Azərbaycanı qətiyyən narahat etmir.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan və Özbəkistan neftçilərinin əməkdaşlığı üçün yeni perspektivlər açılır

**Özbəkistan iqtisadiyyatından söz düşəndə nədənsə ilk növbədə pambıqçılıq qeyd olunur. Lakin bu ölkənin geniş pambıq tarlaları ilə yanaşı, sənayenin bir çox sahəni əhatə edən müəssisələri, onlarca neft və qaz yatağı da var. İndiyədək Özbəkistanın ərazisində aşkar olunan karbohidrogen yataqları sayəsində neft-qaz sektoru ölkə iqtisadiyyatında xüsusi yer tutub. Bu yataqların arasında onilliklərdir istismar edilənlər də, təzə kəşf olunanlar da var.**



Yataqların bəziləri ölkənin öz mütəxəssisləri tərəfindən, bəziləri xarici şirkətlərlə birgə işlənir. Respublikada eləcə də neftin və qazın emalı ilə məşğul olan müəssisələrin geniş şəbəkəsi fəaliyyət göstərir.

Özbəkistanın neft yataqları əsasən Qaraqalpaq Muxtar Respublikasının, eləcə də Əndican, Buxara, Qaşqadərya, Nəmənqan, Surxandərya və Fərqanə vilayətlərinin ərazisində yerləşir. Hasilatın əsas hissəsi ölkənin cənub-qərb regionlarındakı yataqlardan əldə olunur. Digər rayonlardakı neft hasilatı mənbələri kiçikdir və oradakı quyuların debiti o qədər də böyük deyil.

"Əndican" neft yatağı Fərqanə vadisinin şərq hissəsində yerləşir. "Əndican" 1937-ci ildə istismara daxil olub və vaxtilə Fərqanədə ən böyük neft yatağı sayılıb. Sözügedən vadinin şərq hissəsində "Boston" adlı daha bir yataq yerləşir. Yaxınlıqdakı "İzbaskənd" yatağı da Fərqanə vadisinin neftlə zəngin ərazi olduğunu təsdiqləyir.

Lakin Özbəkistan əsasən qaz yataqları ilə tanınır. "Qazlı" adından göründüyü kimi, ən zəngin mavi yanacaq mənbələrindən biridir. Bu yataq çoxdan kəşf edilsə də, keçən əsrin 60-cı illərinin əvvəllərindən istismar olunur. Yataqdan çıxarılan qaz ölkədən xaricə də ixrac edilir. Neft isə Özbəkistanın öz daxili ehtiyaclarına sərf olunur.

Dost və qardaş ölkənin daha bir zəngin qaz-kondensat yatağı Buxara vilayətinin qərb hissəsində yerləşir. Bu, 1980-ci ildə kəşf edilən "Qandım"dır. 2010-cu ilin mart ayında kəşf olunmuş "Təvəkkəl" isə ölkənin gənc yataqlarındandır. Özbəkistanın daha neçə-neçə neft-qaz yatağının adını çəkmək mümkündür. Neft-qaz emalı sahəsini Şurtan, Mübarək, Üstyurd, Buxaradakı qaz-kimya kompleksləri, qaz emalı zavodları təşkil edir. Bunlar böyük layihə gücü olan müəssisələrdir.

Özbəkistanın neft-qaz sənayesinin mütəxəssisləri azərbaycanlı həmkarlarına böyük hörmətlə yanaşır, onların bu sahədəki təcrübəsini yüksək qiymətləndirirlər. Azərbaycanda keçirilməsi artıq illik ənənə halını almış Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində son illər Özbəkistanın geniş təmsil olunması buna aydın misaldır. Burada özbək mütəxəssisləri Azərbaycanın və bir sıra digər ölkələrin neft-qaz işçiləri ilə sıx təmasda olur, işgüzar söhbətlər apararaq gələcək uğurlu əməkdaşlığın, tərəfdaşlığın konturlarını müəyyənləşdirirlər.

Bu əməkdaşlıq getdikcə genişlənir. SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) prezidenti Rövşən Nəcəfin Azərbaycan-Özbəkistan biznes-forumu çərçivəsində "Uzbekneftegaz" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Baxodirjon Sidiqovla bir neçə gün əvvəl keçirilən görüşü də bunu təsdiqləyir. Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən ölkələrimiz arasında enerji sektorunda əməkdaşlığın genişləndirilməsinə dair verilən tapşırıqların icrası istiqamətində mühüm addımların atıldığı vurğulanıb. Bu xüsusda keçən ay Şuşada keçirilən Azərbaycan-Özbəkistan hökumətlərarası komissiyanın son iclası çərçivəsində SOCAR ilə "Uzbekneftegaz" arasında imzalanan sənədlərin əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edilib.

Görüşdə SOCAR ilə "Uzbekneftegaz" arasında neft, neft-kimya, qaz-kimya və digər neft məhsullarının ticarət və logistikası, kadrların hazırlanması üzrə əməkdaşlığın cari vəziyyəti və gələcək perspektivlərə dair müzakirələr aparılıb.

Azərbaycan-Özbəkistan biznes-forumu çərçivəsində tərəflər arasında "Uzbekneftegaz"ın pespublikamızda neft-qaz layihələrində iştirakına dair müqavilə, eləcə də SOCAR-ın Özbəkistanda neft-qaz layihələrində iştirakına dair SOCAR, Özbəkistanın Mədən və Geologiya Nazirliyi və "Uzbekneftegaz" Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında saziş imzalanıb.

Qeyd edək ki, "Uzbekneftegaz" genişmiqyaslı iş aparan bir şirkətdir. Onun fəaliyyətinə karbohidrogenlərin hasilatı, emalı və satışı daxildir. Şirkət eləcə də təbii qazın nəqli - idxalı və ixracını həyata keçirir. Qazın saxlanılması və əhaliyə çatdırılması da "Uzbekneftegaz"ın üzərinə düşür. Bir sözlə, bu müasir şirkət dinamik inkişaf edərək ölkənin sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfə verir. "Uzbekneftegaz" respublikanın büdcəsinə ən çox vergi ödəyən şirkətlər arasında ikinci yerdədir.

Bu günlərdə SOCAR-ın prezidenti Özbəkistanın energetika naziri Jurabek Mirzamaxmudovla da görüşüb. Görüşdə bildirilib ki, Azərbaycan ilə Özbəkistan arasında dostluq münasibətlərinə əsaslanan əməkdaşlıq bütün istiqamətlərdə uğurla inkişaf edir. Yüksəksəviyyəli qarşılıqlı səfərlərin ölkələrimiz arasında əlaqələrin genişləndirilməsində xüsusi rol oynadığı diqqətə çatdırılıb. Bu xüsusda Azərbaycan-Özbəkistan biznes-forumu çərçivəsində imzalanan sənədlərin əhəmiyyəti qeyd olunub.

Tərəflərin neft-qaz sektorunda birgə layihələrin həyata keçirilməsi, o cümlədən karbohidrogen ehtiyatlarının işlənməsi, qarşılıqlı təcrübə mübadiləsinin təşkili məsələləri ətrafında müzakirələr aparması göstərir ki, əməkdaşlığın getdikcə inkişafı üçün böyük perspektivlər mövcuddur.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## *TRASEKA:* Niderland şirkətlərinin iştirakı ilə Azərbaycanda həyata keçirilən layihələr müzakirə edilib

**TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Baş katibi Aset Asavbayev ilə Niderland Krallığının Azərbaycan Respublikasındakı səfiri Paulin Eizema arasında görüş olub.** AZƏRTAC **TRASEKA-nın məlumatına istinadla xəbər verir ki, görüş əsnasında TRASEKA çərçivəsində həyata keçirilən cari təşəbbüslər və Niderland şirkətlərinin bu beynəlxalq nəqliyyat dəhlizinin inkişafında iştirakı imkanları müzakirə olunub.**

Paulin Eizema qeyd edib ki, TRASEKA beynəlxalq nəqliyyat dəhlizi özünün multimodallığı və sərhədlərin çoxluğu ilə fərqlənir ki, bu da Avropa ilə Mərkəzi Asiya ölkələri arasında əlaqələrin təmin edilməsi üçün zəruri amildir.

Aset Asavbayev miltimodal yükdaşımaların həcminin genişlənməsi istiqamətində görülən işləri qeyd edib və səfirə Hökumətlərarası Komissiyanın Daimi Katibliyinin konteynerlərin təşkili, dəhlizin rəqəmsallaşması, o cümlədən elektron nəqliyyat sənədlərinin tətbiqi, sərhədlərdən keçmə prosedurunun yaxşılaşdırılması, rəqabətqabiliyyətli tariflərin və güzəştli şərtlərin müəyyən edilməsi, qanunvericiliyin təkmilləşdirilməsi və s. üzrə fəaliyyəti haqqında məlumat verib.

Müzakirələr zamanı həmçinin Avropa-Qafqaz-Asiya regionları üçün strateji əhəmiyyətə malik olan inteqrasiya prosesləri ətrafında fikir mübadiləsi aparılıb. Baş katib Aset Asavbayev qeyd edib: "Yük axınının istiqamətinin dəyişməsini nəzərə alaraq, TRASEKA ölkələri bu beynəlxalq nəqliyyat dəhlizinin buraxılış qabiliyyətinin artırılması üzrə fəal tədbirlər görür və bu prosesdə Avropa İttifaqı ölkələri tərəfindən də diqqət və dəstəyə ehtiyac var".

Görüşün yekununda Niderlandın səfiri cari fəaliyyət və ölkələrdə təşəbbüslərin həyata keçirilməsi üzrə statusla detallı şəkildə tanış olduqdan sonra əməkdaşlığa hazır olduqlarını bildirib.

Baş katib öz növbəsində TRASEKA-nın təşəbbüslərinin reallaşmasında və dəhlizdən yükdaşımaların artırılmasında Niderland Krallığının dəstəyinə ümid etdiyini söyləyib.

## Azərbaycan neftinin qiyməti 88 dolları ötüb

**"Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,2 dollar artaraq 88,56 dollar olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 60 ABŞ dollarından hesablanıb.

Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

## Gündəlikdə Tərtərin turizm potensialından istifadə olunmasına diqqətin artırılmasıdır

**İkinci Qarabağ savaşından sonra Tərtər rayonu ərazisində şəhər və kəndlərin, müharibədə dağıdılmış infrastrukturun bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir.**



Bu sırada dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq, bölgənin turizm potensialından istifadə imkanları da müzakirə edilir. Bu günlər Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovla Qarabağ Regional Turizm İdarəsinin rəisi Hikmət Heydərov arasında keçirilmiş görüşdə də həmin məsələ müzakirə olunmuşdur. Görüşdə Prezidentin 22 iyul 2022-ci il tarixli sərəncamından irəli gələn vəzifələr ətraflı təhlil olunmuş, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"nda qarşıya qoyulan vəzifələrə uyğun olaraq 44 günlük Vətən müharibəsində rayonun işğaldan azad edilmiş Suqovuşan qəsəbəsində "turistik kənd" yaratmaq istiqamətində layihələr həyata keçirildiyi, qəsəbəyə gedən avtomobil yolunun kənarlarında turizm marşrutu üzrə məlumatverici lövhələr yerləşdirildiyi qeyd edilmişdir. Tərtərin turizm potensialı və bu sahədə həyata keçirilən tədbirlərdən danışılan görüşdə qarşıda duran vəzifələr də müzakirə olunmuşdur.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Dəniz də təmizlik sevir

**İqlim dəyişmələri Xəzər dənizinə də təsir edir. Yağıntıların miqdarının aşağı düşməsi çayların suyunun azalmasına səbəb olur ki, bu da sonda dənizlərin, o sıradan Xəzərin başında çatlayır.**

Digər yandan da Xəzərin çirklənməsi problem yaradır. Dənizin hövzəsində, sahillərində yerləşən şəhərlərin və sənaye obyektlərinin çirkli suları, dəniz nəqliyyatından və neft mədənlərindən daxil olan müxtəlif maddələr Xəzəri çirkləndirir. Çimərlik mövsümü zamanı özümüzün də natəmizliyini onların üzərinə əlavə etsək, mənzərə daha aydın olar.

Məlumdur ki, Xəzər 5 ölkəni birləşdirən böyük su hövzəsidir. Ona görə də dənizin çirklənməsi təkcə Azərbaycanın deyil, həm də qalan 4 ölkənin problemidir.

Mütəxəssislərin dediyinə görə, Xəzəri ən çox çirkləndirən Volqa çayıdır. Çirklənmənin 80 faizi məhz bu çayın payına düşür. Volqanın ətrafında 20-25 milyon insan yaşayır. Həmin insanların məskunlaşdığı ərazilərin həm sənaye, həm də məişət tullantıları Volqa çayı ilə Xəzərə axıdılır. İkinci çirklənmə mənbəyi Araz çayıdır. Bu çaya ən çox tullantı Ermənistan tərəfindən tökülür. Bir yandan da Gürcüstan Kür çayına qənim kəsilib. Dost ölkənin sənaye və

### Azərbaycan Xəzərin çirklənmədən qorunması üçün kompleks tədbirlər görür



məişət tullantılarının son "ünvan"ı Kürdür. Kür məsələsində Azərbaycan da "ətəyində namaz qılınan" deyil. Gürcülərdən bir az aşağı, bir az yuxarı fərqlənmirik. Bir sözlə, Xəzər sahilində yerləşən Bakı, Sumqayıt, Mahaçqala, Həştərxan, Türkmənbaşı, Rəşt və Ənzəli şəhərlərindən axıdılan çirkli suları "həzm" etməklə məşğuldur.

Məlumdur ki, Xəzərin dibi neft və qazla zəngindir. Bu gün həmin sərvəti çıxararkən ən müasir texnologiyalardan istifadə olunur. Emal prosesində bəzən qəza baş verdiyindən neft dənizə tökülüb suyu çirkləndirir. Xəzərdə üzən gəmilərin də çirklənmədə böyük rolu var. Hərbi gəmilərdəki manevrlər, təlimlər nəticəsində dənizin müəyyən dərəcədə suyu çirklənir. Eləcə də digər dəniz nəqliyyatı vasitəsilə suya xeyli çirkli maddələr axıdılır. Bu maddələr təkcə suya yox, həm də dənizin doğma "sakin"ləri olan canlılara mənfi təsir edir.

Ekoloqlar deyirlər ki, okeanların, dənizlərin, çayların altında olan bitkilər oksigen ifraz edir. Bütün dünyada ifraz edilən oksigenin 60 faizi həmin bitkilərin hesabınadır. Zərərli maddələr məhz həmin bitkilərə təsir etdiyi üçün suyun oksigenə olan tələbatı azalır. Quru ərazidə bitkilər məhv olanda insanlar yenidən əkib-becərə bilirlər. Ancaq dənizin dibində məhv olan bitkiləri xilas etmək mümkün deyil. Üstəlik də balıqların əksəriyyəti həmin bitkilərlə qidalanır. Demək olar ki, Xəzərdə qida zənciri qırıldığı üçün mikroflora, fauna, yəni canlı aləm azalıb.

Xəzərin dərinliklərində və sahilyanı ərazilərdə Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı kitabı"na daxil edilmiş 500-dən çox bitki və 850 növ heyvan, o cümlədən nadir və endemik növlər yaşayır. 2020-2023-cü illərdə Xəzərə və ona tökülən çaylara 20 milyon 600 mindən çox balıq körpəsi buraxılıb. Dənizin sualtı flora və faunasının məhv olmaması üçün Xəzəryanı dövlətlər güclərindən maksimum istifadə edirlər. O cümlədən Azərbaycan Xəzəryanı dövlətlər arasında yeganə ölkədir ki, dənizin və onun əhatəsinin çirklənmədən qorunması üzrə kompleks tədbirlər həyata keçirir.

Bu gün milyon tonlarla zəhərli maddə havaya buraxılır. Onlar həm yağış, həm də çaylar vasitəsilə su hövzələrini, həmçinin Xəzəri çirkləndirir. Üstəlik təbii və süni fəlakətlər, müharibələr də dəniz suyunun çirklənməsinə səbəb olur. Ona görə də Xəzəryanı ölkələr dənizin ətraf mühitinin bugünkü vəziyyəti ilə əlaqədar tədbirlər görürlər. Dənizin ətraf mühitinin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə məsələləri bu ölkələrin milli siyasətinin prioritet istiqamətlərindəndir. Azərbaycanda da Xəzər dənizinin ətraf mühitinə mənfi təsirləri minimuma endirmək üçün tədbirlər həyata keçirilir. Görülən işlərin mərkəzində Xəzərin çirklənmədən qorunması və bioloji ehtiyatlarının mühafizəsi dayanır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Abşeron yarımadasının kanalizasiya şəbəkəsi olmayan Bilgəh, Buzovna, Mərdəkan, Pirşağı, Nardaran sahil zolaqlarında və "Amburan" çimərliyi ərazisində, eləcə də Novxanı və Corat bağlarının sahilboyu ərazilərində beynəlxalq standartlara cavab verən çoxlu sayda modul tipli çirkli sutəmizləyici qurğu quraşdırıb. Azərbaycan hökumətinin və Koreya Respublikası İxrac-İdxal Bankının birgə maliyyələşdirdiyi Pirşağı tullantı sutəmizləyici qurğusunun tikintisi də başa çatmaq üzrədir. Yeni bioloji tipli tullantı sutəmizləyici qurğunun məhsuldarlığı sutkada 40 min kubmetr layihələndirilib.

Pirşağı tullantı sutəmizləyici qurğusunun çıxış xəttinin 400 metrlik hissəsi quru, 1300 metrlik hissəsi isə dənizdə quraşdırılıb. İnşasında son texnologiyalardan istifadə edilən layihə çərçivəsində dənizin dibi ilə marşrut müəyyənləşdirilib və ixtisaslaşmış gəmilərlə dibdərinləşdirmə işləri aparılıb. Ərazidə yaranan tullantı sularının toplanaraq təmizləyici qurğuya ötürülməsini təmin etmək üçün giriş nasos stansiyasının yer səthindən 28 metr dərinlikdə yerləşən şaxtası inşa olunub. Ötürmə gücü sutkada 260 min kubmetr olan nasos stansiyası quraşdırılır.

Qurğuda tullantı suları ekoloji standartların tələblərinə tam uyğun olaraq təmizlənib zərərsizləşdiriləcək. Azərbaycanda ilk dəfə olaraq bu qurğuda tullantı sularının zərərsizləşdirilməsi ultrabənövşəyi şüa texnologiyası ilə aparılacaq. Yarana biləcək qoxunun neytrallaşdırılması üçün xüsusi biosüzgəclərdən istifadə olunması nəzərdə tutulur. Ən sonda tullantı sularının diskfiltr vasitəsilə təmizlənməsi və zərərsizləşdirilməsi nəzərdə tutulur. Bunun üçün ərazidə xüsusi qurğular quraşdırılıb. Sonda onu bildirək ki, bu layihə Xəzər dənizinin ekoloji təhlükəsizliyinin qorunması istiqamətində çox böyük uğurdur.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Növbəti toxum sərgi-satış yarmarkası Ağstafada keçirildi

**Ağstafa rayonunda Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə növbəti Aqrar İnnovasiya Festivalı keçirilib.**

Ağstafa Aqrar Sənaye Kompleksinin ərazisində təşkil edilən festival çərçivəsində mövsümün növbəti toxum sərgi-satış yarmarkası təşkil olunub. Aqrar İnnovasiya Mərkəzi, Aqrar Xidmətlər Agentliyi, Dövlət Toxum Fondu, Azərbaycan Toxumçular Assosiasiyasının təşkilatçılığı ilə keçirilən toxum sərgi-satış yarmarkasında Ağstafa, Tovuz, Qazax, Şəmkir, Gədəbəy, Göygöl, Samux, Goranboy, Daşkəsən rayonlarından toxum istehsalçıları və fermerlər qatılıb.

Festival zamanı toxumçuluq fəaliyyəti ilə məşğul olan fermerlərə "Tərəvəz toxumlarının innovativ üsullarla istehsalı" mövzusunda təlim keçirilib, müzakirələr aparılıb, fermerləri maraqlandıran suallar ətraflı cavablandırılıb, müvafiq məsləhət və tövsiyələr verilib.



Festival çərçivəsində həmçinin kənd təsərrüfatı təyinatlı texnologiya və avadanlıqların sərgi və nümayişi, "Rusiya-Azərbaycan tarla günü - 2023" keçirilib.

Qeyd edək ki, Ağstafa rayonunda təşkil edilən festival Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə keçirilən sayca 20-ci tədbirdir.

Dünya olduğu kimi

# İş qabiliyyətini yüksəldən daşlar

**Dəyərli mineral daşlardan biri də yaqutdur. Qədim dövrlərdə ləl, yaxont adlanan daşın rəngi çəhrayıya çalır. Yaqutdan əsasən zərgərlik işlərində, mexaniki saatlarda yastıq, ilk lazer qurğularında isə lezonans maddəsi kimi istifadə olunur.**





Bahalı daşlardan hesab olunan zümrüd yataqlarına ən çox Muso (Kolumbiya), Tranavaale (CAR) və Uralda (Rusiya) rast gəlinir. Daşın insan orqanizminə faydalı olduğu qeyd olunur.

Çox tez-tez rast gəlinməyən əqiq daşının rəngi müxtəlif çalarlı - boz, tutqun-ağ, yaşıl, çəhrayı, göy, qara olur. Əqiqlər təkcə rəng müxtəlifliyinə görə deyil, həm də aqreqatlarının morfologiyasına və dekorativ xüsusiyyətlərinə, şəffaflıq dərəcəsinə, başqa mineral möhtəvilərinin xarakterinə görə də fərqlənirlər. Göstərilən xüsusiyyətlərin müxtəlif tərkibdə uzlaşması əqiqin növ müxtəlifliklərinin əmələ gəlməsinə səbəb olur.

Mineral daşın ən geniş yayıldığı ərazilər Uruqvay, Braziliya, Hindistan, Monqolustan, Rusiya, Gürcüstan, Almaniya və ABŞ-dir. Azərbaycanda əqiqin əsasən Kiçik Qafqazın şimal-şərq dağətəyi hissəsində yerləşən 20-dən artıq yataq və təzahürü məlumdur. Əqiq yataqları Göygöl, Gədəbəy, Qazax, Qubadlı rayonlarında yerləşir. Qədim yunanların "aqatos" adlandırdığı daşın yunanca mənası "xoşbəxtlik" deməkdir. Bəzi mənbələrə görə isə daşın adı ilk dəfə tapıldığı Siciliya adasındakı Axates çayından götürülüb. İnanclara görə, daş öz enerjisi ilə nikbinlik bəxş edir, özünəinamı artırır.

Yosun rəngli əqiq xoşbəxtlik hissi bəxş edir, narıncı ümidsizliyi aradan qaldırır, sarı həyat sevgisi verir, qara rəngdə olanı isə qərarlılıq bildirir. Tarix boyunca əqiq daşlarından hazırlanmış möhür, düymə və üzüklər məşhur olub. Əqiq mineralından gözmuncuğu hazırlayıb uşaqların biləyinə, sinəsinə bağlayıblar. Onun uşaqları bədnəzərdən, gözdəyməsindən xilas etdiyini düşünürdülər. İntibah dövründə isə İtaliyada sənətkarlar əqiqdən talisman kimi istifadə edirdilər. Tarixən aristokratlar əqiqin parlaq rəngli növlərindən hazırlanmış zinət əşyaları taxıblar.

## Sehrli enerji

**Qiymətli daşlar qədim zamanlardan insanların diqqətini cəlb edib. Daşlardan həm zinət əşyaları kimi istifadə olunub, həm də müalicəvi əhəmiyyətləri nəzərə alınıb. İnanclara görə, hər bir daş müxtəlif mənaya yozulub və müəyyən hadisələrin qarşısının alınmasına və ya baş verməsinə zəmin yaradıb.**



Məsələn, insanlar "sapfir" daşının ilanı öldürməsinə, "heliotrop"un insanı gözəgörünməz etməsinə, "ametist"in dilin altına qoyanda sərxoşluqdan qoruduğuna inanırmışlar.

Orta Asiya alimi Biruni yazırdı ki, əgər ilanın qarşısında zümrüdü saxlasan, onun gözündən yaş axacaq və o, kor olacaq. Almaz daşını dayanıqlığın və cəsarətin, qorxmazlığın, bədbəxtliyə üstün gəlməyin simvolu, "kvars"ı gizli və sehrli enerjiyə malik olması kimi dəyərləndiriblər. Eyni zamanda bəzi ölkələrdə qiymətli daşlara rənglərinə görə üstünlük verirdilər ki, bu da həmin daşın xalq arasında geniş istifadəsi demək idi.

## Dəniz suyu - Aquamarin

**Mavi və ya yaşılımtıl mavi rəngli berilin bir növü də akvamarindir. Parlaq rəngi və yaxşı işlənə bilməsinə görə bəzək və zinət əşyalarında istifadə edilir. Az tapıldığı üçün qiymətli daşlar siyahısına daxildir.**



Aquamarin latın sözü olub "aqua marina" - dəniz suyu deməkdir. Onun belə adlandırılmasına səbəb dəniz suyu rəngində olmasıdır. Qədim Romada onu dənizçilərin himayəçi daşı hesab edir və kapitan namizədlərinə uğur üçün hədiyyə edirdilər. Akvamarin mart ayının uğurlu daşıdır. Eyni zamanda himayəçisi su olan balıq bürcünün uğurlu daşlarından hesab edilir. Əsasən ABŞ-də, Braziliyada və Rusiyada çıxarılır. Bu günə qədər ən böyük akvamarin 1910-cu ildə Braziliyadan çıxarılıb. Onun ağırlığı 520000 karat olub.

Akvamarindən hazırlanmış ilk zərgərlik nümunələri XVIII əsrə aid edilir. Bu dövrdə geniş yayılmış Rokoko üslubunda açıq rəngli, parlaq daşlardan istifadə edilirdi ki, bunlardan biri də akvamarin idi. Lakin akvamarindən hazırlanmış ən möhtəşəm zərgərlik nümunələri XX əsrin birinci yarısına təsadüf edir. Bu dövrdə digər parlaq daşlara (almaz, yaqut, zümrüd və s.) nisbətən daha ucuz olduğuna və parlaq rənglərinə görə akvamarin zərgərlikdə geniş istifadə edilib. XVI əsrdə Avropada ondan eynəklər üçün linzalar hazırlanb.

Qiymətli daşlardan hesab olunan aleksandrit özünəməxsus xüsusiyyəti ilə digərlərindən fərqlənir. Belə ki, süni işıqda (məsələn, lampa işığında) bənövşəyi və ya al-qırmızı, günəş işığında isə yaşıl rəngdə görünür.

## Bahalı mineral

**Almaz saf karbondan əmələ gələn ən bərk maddə hesab olunur. Karbon elementinin bir modifikasiyası qrafit, digəri isə almazdır. Almazın saf karbon olduğu ilk olaraq fransız kimyaçı Lavuazye tərəfindən aşkar edilib. Almaz kristallik quruluşa malikdir və ona görə də o, dielektrikdir.**



Almaz çox nadir və eyni zamanda çox geniş yayılmış mineraldır. Bir neçə min il əvvəl almaz üzdə olan yataqlardan çıxarılırdı. Yalnız XIX əsrin sonunda almazın sənaye üsulu ilə çıxarılmasına başlanılıb.

Qiymətli daş orijinal halda yalnız kimberlit qayalarında tapılır. Almazın bəzi yer qabığı hərəkətləriylə yuxarıya çıxdığı güman edilir. Qiymətli daşın ən çox tapıldığı yerlər Cənubi Afrika (Kimberleydə), Cənubi Amerika, İndoneziya və Hindistandır.

Bu daşdan əsasən zinət əşyası və üzük daşı olaraq istifadə olunsa da, qədim dövrlərdə ondan xəstəlik və zəhərlənməyə qarşı da istifadə edilib.

Məlumatlara görə, dünyanın ən böyük almazı 1905-ci ildə Cənubi Afrikadakı Premyer mədənində kəşf edilmiş "Cullinan"dır. Mədənin sahibi Tomas Kullinanın şərəfinə adlandırılan "Cullinan" almazı kəsilməmiş vəziyyətdə 3106 karatdan çoxdur.

İkinci ən böyük almaz 2019-cu ilin aprel ayında Botsvanadakı "Karowe" mədənində Lucara Diamonds tərəfindən tapılıb. Hələ adı açıqlanmayan 1758 karatlıq daş bu siyahıya aid olmaya bilər, çünki Lucara onu "dəyişən keyfiyyətə yaxın daş" kimi təsvir edir. Bu isə o deməkdir ki, onun yalnız müəyyən hissələri şəffafdır.

## Avqust ayının uğurlu daşı

**Xrizolit digər adı ilə Peridot qızılı-yaşıl, yaşıl və ya qonur-yaşıl rəngli yarıqiymətli daşdır. Bəzən topaz daşı və ya yaşıl rəngli berillə qarışdırıla bilər. Lakin kimyəvi tərkibi və xassələri ilə digərlərindən fərqlənir.**

Daşın rəngi tərkibindəki dəmirin miqdarına bağlıdır. Dəmirin miqdarı nə qədər az olarsa, daşın rəngi bir o qədər parlaq olur və qiyməti artır. Qızılı-yaşıl rəngli və parlaq yaşıl rəngli xrizolit daha dəyərlidir. Solğun qonur rəngli daşlardan isə zərgərlikdə demək olar ki, istifadə edilmir və dəyərli hesab edilmir.

Xrizolit çox rast gəlinən mineral olsa da, dəyərli nümunələri çox az tapılır. Ən böyük xrizolit mədəni ABŞ-nin Arizona ştatında yerləşir. Pakistanda kaşmir peridot adlı çox qiymətli xrizolit çıxarılır. Bu mineral ilk dəfə Qırmızı dənizdəki Zebercet adasından çıxarılıb. Məhz buna görə bəzən bu daşa zebercet daşı da deyirlər. İlk dəfə misirlilər bu daşı zərgərlik məmulatlarında istifadə ediblər. Ən böyük xrizolit nümunəsi 310 karat ağırlığındadır və Vaşinqtondakı Smithonian Universitetində saxlanılır.

Peridot daşı avqust ayının uğurlu daşı sayılır. Havay adalarında yaşayan yerlilər bu daşı sitayiş etdikləri od tanrısının - Pelenin göz yaşları hesab edirlər. İbn əl-Ərəbinin qeydlərində isə məşhur Kaf dağının yaşıl zebercet daşından ibarət olduğu göstərilir.



*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

Sağlıq olsun

# Qiymətli qaşların şəfası

**Ta qədim zamanlardan zərif, parlaq və gözoxşayan rənglərə malik daş-qaşlardan zinət əşyası, var-dövlət, sərvət kimi istifadə edilməklə yanaşı, onların fiziki təsirlərinin olduğuna, üzərində daşıdığı daşın enerjini uda və ya əksinə çevirə biləcəyinə inanılıb. Bu daş-qaşların sağlamlığa çox faydalı olduğu elmi baxımdan da sübut olunub. Müalicəvi təsirə malik sakitləşdirici təbii daşlar fiziki və zehni problemləri azaldır.**



Parıltısı ilə göz qamaşdıran almaz daşı görmə qabiliyyətini yaxşılaşdırır, beyinə fayda verir. Allergiya və xroniki xəstəliklərin aradan qaldırılmasına kömək edən almaz maddələr mübadiləsini də bərpa edir. Zəhərlərə qarşı istifadə edilən bu daş həm də insanın enerjisini artırır.

Yaşıl rəngi ilə ruhu oxşayan zümrüd daşı immunitet və sinir sistemini, ürəyi, ağciyərləri və böyrəkləri gücləndirir. Sədaqət hissini artıran bu daşın həyat sevincini artırdığını da bildirirlər.

"Göy yaqut" kimi də tanınan sapfir min illər boyu kimyagərlik və astrologiya sahəsində istifadə edilib. Bu daşın göz infeksiyalarını və zəif görməni yaxşılaşdıra bilmə xüsusiyyətləri var. Nevrozun, depressiyanın müalicəsində böyük fayda verə bilən sapfir insanın əhvali-ruhiyyəsini yaxşılaşdırır, emosional tarazlıq hissini yenidən bərpa edir. Bu qiymətli daşdan yuxusuzluğu, baş ağrılarını, burun qanamalarını, eşitmə problemlərini, infeksiyaları və başgicəllənməni aradan qaldırmaq üçün istifadə edirlər.

Sapfirin qan xəstəlikləri, sinir sistemi problemlərinin müalicəsində də faydası çoxdur.

## Mənfi enerjiyə qarşı

**Gözəl görünüşə malik olan yaqut daşının faydaları saymaqla bitmir. İnsan bədənindən mənfi enerjini çıxararaq, xaricdən gələn pis enerjiyə qarşı qoruyucu sədd yaradan yaqut yorğunluğu aradan qaldıraraq orqanizmə güc verir, yaşlanmanın qarşısını alır.**



Aşağı təzyiqə qarşı təsirli olan daş bədəndəki qanı yeniləyir və dövranını sürətləndirir. Bu səbəbdən o, "qan daşı" kimi də tanınır. Anemiyanın müalicəsində tez-tez istifadə olunan daş qanda baş verə biləcək xəstəliklərin qarşısını alır. Əzələ ağrılarından əziyyət çəkən insanlara müsbət təsir göstərən yaqut daşı böyrək, ürək xəstəliklərinin qarşısını alır.

Göz xəstəliklərini aradan qaldıran yaqut qaranlıq qorxusuna və onun yaratdığı psixi pozğunluqlara qarşı çox təsirlidir. "Qan daşı" yoluxucu xəstəliklərə qarşı müsbət təsir göstərir və onların ötürülmə sürətini azaldır, həmçinin zərərli günəş şüalarından qoruyur.

## Milyon illik cövhər

**Kəhrəba bir şam ağacı növünün milyonlarla il ərzində fosilləşməsi nəticəsində əmələ gələn qatrandır. Kəhrəba daşı bu gün bəzək və zərgərlik məmulatlarının hazırlanmasında daha çox istifadə olunur, amma qədimdə ondan həm də şəfaverici xüsusiyyətlərinə görə də faydalanıblar.**



Kəhrəba, dəri səthindəki məsamələrdən bədənə daxil ola bilən və müntəzəm olaraq istifadə edildikdə bədəni qidalandıran mikroelementlərə malik olan təbii cövhər hesab edilir. Əgər kəhrəba uzun müddət dəri ilə təmasda olarsa, onun bir çox mineralları və iz elementləri (insan bədəninin hüceyrələrində ən az miqdarda tapılan və olmaması və ya artıqlığı xəstəliklərə səbəb ola bilən elementlər) bədən tərəfindən yavaş-yavaş udula bilər.

Sevgi, şəfa, sevinc və səbir daşı sayılan kəhrəba bədəndən mənfi enerjini çıxarır. Kəhrəba daşının enerjisi bədən və ağıl üçün güclü müalicəvi və təmizləyici təsirə malikdir. Sinir sistemini, beynin sağ və sol hissələrini tarazlamağa kömək edən bu daş ağrı və mənfi enerjini udaraq stressi aradan qaldırmağa kömək edir. Müalicəvi daş depressiyadan qurtulmağı, zəkanın stimullaşdırılmasını, özünəinamı dəstəkləyir, insana düzgün qərar verməyi təşviq edir, müdriklik, tarazlıq və səbir gətirir.

Məşhur Baltik kəhrəbası şəfalı olması, ağrı və iltihabı aradan qaldırma xüsusiyyəti ilə seçilir. Baltik kəhrəbasının tərkibində təqribən 3-8 faiz süksin turşusu (ağrıkəsici xüsusiyyətlərə malik aktiv birləşmə) var. Süksin turşusu əsasən kəhrəba qabığında olur. Baltik kəhrəbasından istifadə edilən zaman qətrandakı yağlar bədən istiliyi sayəsində qızdığı üçün dəri tərəfindən udulur. Bu, həmin turşunun qan dövranınıza daxil olmasına imkan verir və maksimum müalicəvi təsir göstərir.

Kəhrəba soyuqdəymə, astma, zob, bronxit və allergik xəstəliklərin müalicəsində istifadə olunur. Boğaz və qalxanabənzər vəzi infeksiyalarının müalicəsi üçün də çox faydalıdır. Keçmişdə təmizlənmiş kəhrəba yağı isteriya və göyöskürək üçün istifadə edilib.

## Fiziki və mənəvi aləmlər arasında körpü



**Qədim şəfaverici daşlardan biri sayılan firuzə daşının fiziki və mənəvi aləmlər arasında körpü rolunu oynayaraq mənəvi qabiliyyətləri gücləndirdiyinə inananlar var.**

Avropaya türklər tərəfindən gətirildiyi üçün "türk daşı" da adlandırılan bu daş ətrafdakı elektromaqnit və radio dalğalarının yaratdığı çirklənməni təmizləyir.

Firuzə daşının xarici görünüşü istilik, yağ və tər kimi amillərlə bağlı dəyişə bilər. Əgər firuzə daşı taxarkən daş rəngini dəyişərsə, bu onu istifadə edən şəxsin xəstə olması anlamına gələ bilər.

Firuzə qulaq, burun və boğazla bağlı ağrı və şikayətləri aradan qaldırma xüsusiyyətinə malikdir. Miqren və allergiyanı sakitləşdirir, immunitet sistemini gücləndirir, vitaminlərin orqanizmdə sorulmasına kömək edir.

Ağciyərləri təmizləyib daha rahat nəfəs almağı təmin edən "türk daşı" toxumaları bərpa etmək qabiliyyətinə malikdir və bədəndəki turşu səviyyəsini də tarazlaşdırır.

## Astmanın dərmanı

**Gözqamaşdırıcı rəngi ilə diqqət çəkən akvamarin daşının insan sağlamlığına böyük faydası var.**



Tənəffüs yolları, boğaz ağrıları, bronxit, astma və qalxanabənzər vəz xəstəliklərinə xeyirli olan akvamarin ondan istifadə edənlərin zehnini və məntiq gücünü artırır, yaddaşı yaxşılaşdırır. Dişləri və çənə sümüklərini sağlam saxlayır, bədəndəki vəz və şişlərin sağalmasında təsirli olur. Uğur və bolluq daşı sayılan akvamarin insanlara müsbət enerji, nikbinlik və sevinc bəxş edir.

Sahib olduğu xüsusiyyətlərə görə stress və gərginliyə qarşı ən təsirli daşlardan biridir və rənginin mavi olması bu xüsusiyyətini daha da artırır. Ağıl-bədən əlaqəsini stimullaşdıraraq intuisiyanı gücləndirən faydalı daş insanları alkoqol, siqaret və narkotik kimi pis vərdişlərdən uzaqlaşdırır, bu maddələrə olan asılılığı azaldır. Ruhi və fiziki rahatlıq verdiyi üçün həddindən artıq əsəbi, gərgin və həyəcanlı insanlara dinclik verir.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## Xoşbəxtliyin açarı



**Əqiq daşı enerji verən xüsusiyyətə malik olduğu üçün onu yanlarında daşıdıqda insanlar özlərini daha enerjili hiss edirlər. Ağrıları azaltmağa kömək edən əqiqin pis gözdən qoruduğuna da inanılır. Bu daş bağırsaq və mədə xəstəliklərinin müalicəsində xeyirli olur, qan təzyiqini balanslaşdırmağa kömək edir. Hamiləlik dövründə istifadə etdikdə həm ana, həm də körpə üçün faydalı olur.**

Dəri və saç üçün xeyirli olan əqiq daşı zehni və psixi pozğunluqların aradan qaldırılmasına kömək edir, gərginliyi azaldır. Dişlər və sümüklər üçün faydalı olan, qan dövranını tənzimləyən əqiq endokrin sistem xəstəliklərini müalicə edir, osteoxondrozla mübarizə aparır.

Xüsusilə qara əqiq daşının sağlamlığa faydaları çoxdur. İnsana xoşbəxtlik hissi verən bu qiymətli daş ağrını azaldan təsirə malikdir. Ürək xəstəliklərinin, damarların tıxanmasının qarşısını alır, maddələr mübadiləsini sürətləndirir, həzm sistemini yaxşılaşdırır. Yuxusuzluqdan və kabuslardan əziyyət çəkənlərə kömək edir.

## “Böyük qayıdış” proqramı sürətlə icra olunur

# Zabuxa köçürülən ailələrə mənzillərinin açarları təqdim edilib

**Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park-3" yaşayış kompleksindən Laçın rayonunun Zabux kəndinə yola salınan ilk köç karvanı ünvana çatıb. Yeni köçürülən ailələrə mənzillərinin açarlarının təqdimat mərasimi keçirilib.**





Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin və komitənin rəsmiləri, Milli Məclisin deputatı Mahir Abbaszadə iştirak ediblər.

Ailələrə avqustun 7-də Dövlət Komitəsində keçirilən püşkatma zamanı müəyyənləşdirdikləri mənzillərin açarları təqdim olunub. Zabuxlular hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Köçürülən ailələr Zabux kəndində yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bu mərhələdə Zabux kəndinə 20 ailə - 88 nəfər köçürülüb. Yaxın günlərdə sakinlərin kəndə köçürülməsi davam edəcək.

# Laçında özünüməşğulluq proqramının icrasına başlanılıb

**"Böyük qayıdış" proqramı üzrə Laçın rayonuna köçürülən sakinlərin özünüməşğulluğuna da dəstək işləri aparılır.**




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin nümayəndələrinin Laçına köçürülən ailələrlə görüşləri zamanı onların özünüməşğulluq proqramında iştirak imkanları da qiymətləndirilir. Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, sakinlərdən 35 nəfər ilkin mərhələdə özünüməşğulluq proqramına cəlb edilmək üçün qeydiyyata alınıb. Həmin şəxslər üçün əvvəlcə biznes təlimləri təşkil ediləcək, iştirakçılara sahibkarlıq fəaliyyəti və müvafiq dəstək mexanizmləri barədə məlumat veriləcək.

Təlimlərdən sonra proqram iştirakçıları kənd təsərrüfatı, istehsal, xidmət sahələri üzrə kiçik bizneslərini qurmaları üçün aktivlərlə təmin olunacaqlar.

# "Ay Laçın" - doğma və kövrək duyğularla

**"Ay Laçın" xalq mahnısı bu dəfə Laçın şəhəri günündə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarı, I qrup gözdən əlilliyi olan Rəvanə Ağamirovanın ifasında səslənib.**



Öz bacarıq və istedadı ilə "Əlillik qüsur deyil" devizini bir daha təsdiqləyən Rəvanə məlahətli səsi ilə doğma və kövrək duyğular aşılayan bu xalq mahnısına yeni ruh, nəfəs bəxş edib.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan həmin mərkəz digər həssas qruplardan olanlar kimi, I qrup gözdən əlilliyi olan Rəvanə Ağamirovanın da yaradıcı potensialının inkişafına və cəmiyyətə tanıdılmasına mühüm dəstək verir.

Ötən il bu mərkəzə qəbul olunan Rəvanənin ifaçılıq qabiliyyətinin daha da inkişaf etməsi üçün göstərilən səylər öz bəhrəsini verir, o, sənətdə uğurlu addımlara imza atıb.

Onun ifasında səslənən "Ay Laçın" mahnısı da bunu təsdiq edir.

# Ermənistan ordusunun növbəti təxribatının qarşısı alınıb

Avqustun 26-sı saat 13:30 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri təxribat törətmək məqsədilə Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Havuş yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərinin qarşısında əlverişli mövqelər tutmağa cəhd göstəriblər.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bölmələrimizin sayıqlığı nəticəsində təxribat törətmək istəyən qarşı tərəfin fəaliyyəti dərhal dayandırılıb.

# Müdafiə Nazirliyi müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlər üçün qəbul elan edir

**Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan vətəndaşların qəbuluna başlanılır.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş 30 yaşınadək hərbi vəzifəlilər sentyabrın 12-dək Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində, eləcə də Gəncə və Bərdə şəhərlərində yerləşən hərbi hissələrin qərargahlarında fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar qəbul komissiyaları tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin müvafiq tibb müəssisələrinə göndərilirlər. Hərbi həkim komissiyalarının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə üç il müddətinə bağlaşma imzalanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunurlar.

Namizədlər qəbul komissiyalarına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);*
- *şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə, çap edilmiş 2 nüsxədə);*
- *xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;*
- *təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (1 nüsxədə);*
- *doğum haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (1 nüsxədə);*
- *şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti (1 nüsxədə);*
- *nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda, 1 nüsxədə);*
- *uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda, 1 nüsxədə);*
- *evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış (1 nüsxədə);*
- *4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);*
- *qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji və son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə) arayış;*
- *hərbi biletin bütün vərəqlərinin notarial qaydada təsdiq olunmuş surəti (1 nüsxədə).*

Sənədlərin qəbulu həyata keçiriləcək ünvanlar: Bakı şəhəri, Yasamal rayonu, Şəfayət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" Hərbi Şəhərciyi (Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi), Gəncə və Bərdə şəhərlərindəki hərbi hissələr.

Müraciətetmə vaxtı: 2023-cü il sentyabrın 12-dək hər gün (bazar günləri istisna olmaqla) saat 09:00-dan 18:00-dək.

**Qeyd:** Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq, məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

## OXUCULARIN NƏZƏRİNƏ!

“AZƏRBAYCAN” *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*




# Azərbaycanın qrup hərəkətləri komandası dünya çempionatının finalına yüksəlib

**İspaniyanın Valensiya şəhərində keçirilən Bədii Gimnastika üzrə 40-cı Dünya Çempionatında qrup hərəkətləri proqramında çoxnövçülük üzrə təsnifat yarışları başa çatıb.**



Azərbaycan Gimnastika Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, Avropa çempionları, dünya çempionatının bürünc mükafatçıları - Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova və Yelizaveta Luzandan ibarət yığmamız finala yüksəlib.

Qrup hərəkətləri komandası üç lent və iki topla hərəkətlərin icrasında həlledici mərhələyə adlayıb.

Qeyd edək ki, daha əvvəl Avropa çempionatının bürünc mükafatçısı, Yay Universiadasının dördqat gümüş və bürünc medalçısı Zöhrə Ağamirova çoxnövçülük yarışlarının nəticəsinə əsasən, 12-ci pillədə qərarlaşaraq, həm "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya, həm də finala vəsiqə qazanıb.

## *Bakıda qızıl medal qazanan atlet:*

# "Hər gəlişimdə inkişaf edən gözəl şəhər görürəm"

**"Üç yüz metr məsafəyə tüfəngdən atəşaçma çox çətin növdür".**




AZƏRTAC xəbər verir ki, bu sözləri Bakıda keçirilən Atıcılıq üzrə 53-cü Dünya Çempionatında 300 metr məsafəyə tüfəngdən atəşaçma yarışında qızıl medal qazanan Macarıstan atleti İştvan Peni turnirin Mətbuat xidmətinə açıqlamasında deyib.

O bildirib ki, normal tüfənglərdən fərqli olaraq, onun istifadə etdiyi silahın çəkisi ağır olur: "Digər növlərlə müqayisədə çətinlik yaradır. Amma hədəfin ölçüsü bir az böyük olur".

Dünya çempionu Bakıdakı yarışda qalib gəldiyi üçün xoşbəxt olduğunu söyləyib: "2018-ci ildəki dünya çempionatında gümüş, ötən il Misirdə keçirilmiş mundialda isə bürünc medal qazanmışdım. Nəhayət, Bakıda qızıl medal mənim oldu. Artıq kolleksiyamda bir dəst medal var".

Macarıstanlı atıcı olimpiya növü olmamasına rəğmən, bu kateqoriyanı seçməsinin səbəbini də açıqlayıb: "10, 25 və 50 metr məsafəyə atəşaçma növlərində də iştirak etmişəm. Niyə bu növü sevirəm? Ümumiyyətlə, atıcılıq mənim həyatımdır. Silah tutmaq, onunla davranmaq, barıtın qoxusu, patronun düşməsi... Bunların hamısı mənim üçün stimul və əyləncədir".

İştvan Peni paytaxtımız və Bakı Atıcılıq Mərkəzi barədə də fikirlərini bölüşüb: "Bakıya ilk dəfə 2015-ci ildə gəlmişəm. Burada alışmadığımız tək şey havanın tez-tez küləkli olmasıdır. Bu da təbii prosesdir. Çünki Bakı küləklər şəhəridir. Amma paytaxtınız və bu mərkəz çox gözəldir. Hər gəlişimdə inkişaf edən gözəl şəhər görürəm. Bakı hər dəfə dəyişir. Azərbaycan Atıcılıq Federasiyasının fəaliyyətinə də toxunmaq lazımdır. Burada böyük işlər görülür. Yaradılan mərkəz sayəsində bu idman növünün inkişafı yönündə addımlar atılır. Belə yarışların təşkili bunu sübut edir".



# Millimizin hücumçusu Türkiyə klublarından təklif alıb

**Azərbaycan millisinin və İsveçrənin "Qrasshopper" komandasının futbolçusu Renat Dadaşov karyerasını Türkiyədə davam etdirə bilər.**

AZƏRTAC yerli mətbuata istinadən xəbər verir ki, Superliqada çıxış edən "Konyaspor", "Sivasspor" və "Qaziantep" klubları 24 yaşlı hücumçunun xidmətində maraqlıdırlar.

Hətta Sivas və Qaziantep təmsilçilərinin azərbaycanlı forvard üçün "Qrasshopper"ə təklif göndərdiyi iddia olunub.

Qeyd edək ki, Renat Dadaşov 2022-ci ilin yayından İsveçrə klubunun formasını geyinir. O, daha əvvəl Almaniyanın "Ayntraxt", "Leyptsiq", Portuqaliyanın "Eştoril", "Pasuş de Ferreyra", "Tondela" və İngiltərənin "Vulverhempton" klublarının şərəfini qoruyub.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5458
Sifariş 2119

Qiyməti 40 qəpik